# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 45 (3461) Cümə axşamı / 24-30 noyabr 2022-ci il Qiyməti 40 qəpik


# Partiyaları üz-üzə qoyan qanun

***Azərbaycanın siyasi gündəminin ən aktual mövzularından biri yenidən "Siyasi partiyalar haqqında" qanun layihəsinə dəyişikliklərdir. Belə ki, qanun layihəsinin ilkin müzakirələrində xeyli etirazlar və təkliflərin ortaya çıxmasının ardından sənəd yenidən işlənildi. Dünən Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi və İnsan hüquqları komitələrinin birgə iclasında müzakirəyə çıxarıldı. Müzakirələrdə parlamentdə təmsil olunan müxalifət partiyalarının nümayəndələri də iştirak edib. Qeyd edək ki, noyabrın 21-də "Siyasi partiyalar haqqında" qanun layihəsi yeni redaksiyada Milli Məclisin saytında yerləşdirilib. Qanun layihəsinin yeni redaksiyasında ilkin variantla müqayisədə bir sıra dəyişikliklər yer alıb. Milli Məclis sədrinin müavini Əli Hüseynli qanun layihəsi ilə bağlı jurnalistlər üçün keçirilən brifinqdə bildirib ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni variantına ümumilikdə 66 düzəliş edilib. Düzəlişlər həm mahiyyət baxımından, həm də texniki baxımdan olub. O xatırladıb ki, qanun layihəsinin ictimai müzakirələrində həm parlamentdə təmsil olunan, həm olunmayan partiyalar iştirak edib:***



**Yeni qanun Milli Məclisdə müzakirəyə çıxarılır**

*Əsas təkliflər daha çox rəqəmlərə yönəlmişdi*

*Bu qanun layihəsi 20 qabaqcıl Avropa ölkəsinin qanunları nəzərə alınaraq hazırlanıb*

"Əlbəttə ki, qanun layihəsi siyasi partiyaların daha səmərəli fəaliyyət göstərməsi məqsədi daşıyırdı. Bu baxımdan yeni qanun layihəsi hazırlandı. Qanun layihəsində dəyişikliklər nədən meydana çıxdı?! Əsas təkliflər daha çox rəqəmlərə yönəlmişdi. Bir sıra təkliflər var idi ki, bəzi məsələlərdə zaman çoxalsın, bir sıra hallarda zaman azaldılsın. Yəni burada partiyaların təsis edilməsi, ləğv edilməsi, qeydiyyatdan keçməsi, reyestrdən keçməsi və s üçün müddətlərlə bağlı düzəlişlər edilib. Ümumilikdə qanun layihəsinə münasibət pozitivdir və bildiyiniz kimi birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə edilib".

Lakin bu açıqlamalara baxmayaraq, siyasi partiyaları narazı salan, müxtəlif düşərgəni təmsil edən siyasi qüvvələr arasında ciddi fikir ayrılıqlarına səbəb olan məqamlar da az deyil. Bu siyasi fikir qarşıdurmasını istər parlamentdəki dünənki müzakirələrdə səsləndirilən fikirlərdən, istərsə də partiyalar arasında keçirdiyimiz rəy sorğusunda görmək mümkündür. Fikir verək:

■ **Elman Nəsirov, deputat:**

Bu qanun layihəsi ətrafında bu qədər fikirlərin olması demokratiyanın təzahürüdür. Konseptual məsələlərdə heç kimdə fikir ayrılığı olmamalıdır. Bu qanun layihəsi 20 qabaqcıl Avropa ölkəsinin qanunları nəzərə alınaraq hazırlanıb. Qanun layihəsində ümumiyyətlə, yaş senzi yoxdur, halbuki prezident olmaq istəyən şəxs üçün 35 yaş, ali təhsil senzi də var. Bu layihə ilə bağlı müxalif siyasi fikirlər kifayət qədər azalıb. Bu gün Azərbaycanda 58 siyasi partiya var, amma mən, ardıcıl cəmi 11 siyasi partiya adı saya bilərəm. Partiya sədrləri yadıma düşdü, amma siyasi partiyaların adı yadıma düşmədi. Bu məntiqlə əsas məsələ siyasi partiya olması deyil, siyasi partiyanın vətəndaşların siyasi iradəsini ifadə etmək üçün gücə malik olmasıdır. Siyasi partiyada bu potensial, ictimai fikrə təsir imkanları varsa, bu qanun o partiyaların xoşuna gələcək. Hazırkı vəziyyətdə bu qanun kifayət qədər təkmildir.

*Azərbaycanda 50-dən çox partiya olsa da, çoxpartiyalı sistem hələ oturuşmayıb*

*Gəlin görək hakimiyyətdə olmaq üçün digər partiyaların nə qədər şansı və imkanı var*

■ **Ziyafət Əsgərov, Milli Məclisin komitə sədri:**

- Azərbaycanda 50-dən çox partiya olsa da, çoxpartiyalı sistem hələ oturuşmayıb. Qanun layihəsinin qəbulunda məqsəd siyasi partiyalara şərait yaratmaqdır və Azərbaycan iqtidarı və dövləti bu məsələdə siyasi partiyaların rolunun artmasında maraqlıdır. Hazırda Azərbaycanda oturuşmuş siyasi sistem patiyaların çoxluğu hələ çoxpartiyalı siyasi sistem demək deyil. İllərdir seçkilərdə iştirak etməyən partiyalar fəaliyyət göstərir. Əvvəlki qanunvericilikdə müəyyən müddətdən sonra həmin təşkilatların fəaliyyətinə xitam verilirdi. Lakin indi həmin maddə tamamilə çıxarılıb. Əgər cəmiyyətə xeyri dəyməyəcəksə, siyasi proseslərdə iştirak etmirsə, siyasi sistemin formalaşması üçün faydası olmayacaqsa, onda siyasi partiya yaratmağın nə faydası var?! Avropanın aparıcı ölkələrində müəyyən müddət ərzində siyasi proseslərdə, seçkilərdə iştirak etməyən partiyanın fəaliyyətinə xitam verilir, amma biz bunu saxlayırıq. Həddindən artıq demokratik normanın qanun layihəsinə salınmasına partiyalar hazırdırmı?

Yuxarıda əksini tapan fikirlər qanun layihəsini dəstəkləyən və dəyişiklikləri zəruri sayan arqumentlərə əsaslanır. Lakin bir sıra məqamlarla bağlı ciddi fikir ayrılığını müzakirələrdə iştirak edən digər siyasi qüvvələrin təmsilçilərinin bəyanatlarında görə bilərik:

■ **Erkin Qədirli, deputat, REAL partiyasının üzvü:**

- Mən bu qanun layihəsinə qarşıyam. Ona görə də qanunun ayrı-ayrı müddəalarının müzakirəsi ilə vaxtınızı almaq istəmirəm. Sadəcə xahiş edirəm ki, protokolda yazılsın ki, bu layihəyə qarşıyam. Plenar iclaslarda da əleyhinə səs verəcəyəm. Səh. 3

BİZİM SƏFİR

## Əlcəzair Azərbaycanla yeni müqavilə imzalayacaq



**Abdelouahab Osmane,**
Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri

***Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev Ərəb Ölkələri Liqasının Zirvə toplantısında iştirak etmək üçün Əlcəzairə ilk səfərini etdi. Dövlət başçısının tarixən Azərbaycanla dost münasibətləri olan Əlcəzairə səfəri, onun bu ölkənin tarixində böyük hünər rəmzinə, azadlıq ilhamvericisinə çevrilmiş Şəhidlər Abidəsini, Milli Mücahidlər Muzeyini ziyarət etməsi bir azərbaycanlı olaraq hər birimizi qürurlandırdı.***

*Mən Kəlbəcərdə olarkan nəfəskəsən mənzərələri seyr etmişdim*

Səh. 3

MÜSAHİB



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

■ Bu dəfə də Ermənistan sülhə doğru addım atmayacaqsa, sülhə təhdid yaradacaqsa, Azərbaycanın Dəmir Yumruğunu yenə görəcək

■ Üzdə elə gedişlərə rast gəlirik ki, onun bir hissəsi Azərbaycan xalqının mənafelərini ifadə etsə də, arxada bəzi planların olduğunu görürük

■ Laçın yolunun bağlanması, açılması, orada gömrük postunun qoyulması və yaxud sərhəd xidmətinin qurulması hüququnu Azərbaycan özündə saxlayır Səh. 5

GÜNÜN FOTOSU...



**Rusiya və Türkiyə generalları Sarıbabada**

GÜNÜN SİTATI

*"İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir"*



**Aleksandar Vuçiç,**
Serbiya Respublikasının Prezidenti

KARİKATURA



**Mina təxribatı davam edir**

## İranda iki güclü klan arasında mübarizə gedir

**Ərəstun Oruclu,**
Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

Bu halda Rusiya Qarabağdakı silahlı erməni birləşmələrindən destablizasiya faktoru kimi istifadə edəcək...

Səh. 6

STATİSTİKA



■ **136 qadın təsərrüfat sahibi avadanlıqlarla təchiz olunub. 2021-ci il ərzində kənd təsərrüfatının inkişafı məqsədilə aqrar sahədə çalışan 375 sahibkar qadına 4 milyon 262 min 809 manat kredit, 3 milyon 204 min 689 manat güzəşt verilib. Həmçinin, 2021-2022-ci təsərrüfat ili ərzində ümumilikdə 56 min 439 dövlət büdcəsi vəsaiti hesabına subsidiya ödənilib.**



Səh. 4

## Təhsil xərcləri artırılır

**XƏBƏR LENTİ**

# Milli Məclis ASEAN PA-ya müşahidəçi üzv qəbul olunub



**Noyabrın 23-də Kamboca Krallığında keçirilən ASEAN Parlamentlərarası Assambleyasının (ASEAN PA) 43-cü Baş Assambleyasının ikinci plenar iclası Azərbaycan parlamentarizmi üçün əlamətdar hadisə ilə yadda qalıb.**

Belə ki, iclasda Azərbaycan Respublikası Milli Məclisinin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv kimi qəbul olunması ilə bağlı təntənəli mərasim təşkil olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, ölkələrin rəsmi qəbuletmə mərasimində ilk olaraq, Azərbaycanın üçrəngli bayrağı Fəxri Qarovulun müşayiəti ilə səhnəyə gətirilib.

Kamboca Krallığı Milli Assambleyasının sədri, ASEAN PA-nın 43-cü Baş Assambleyasının prezidenti Akka Moha Ponhea Çakri Henq Samrin Milli Məclisin ASEAN PA-ya müşahidəçi üzv qəbul olunması ilə bağlı müvafiq sənədi Azərbaycan parlamentinin sədri Sahibə Qafarovaya təqdim edib.

Xatırladaq ki, ASEAN PA-nın daxili nizamnaməsinə əsasən, milli parlamentlərin təşkilatda müşahidəçi statusu alması ilə bağlı müraciətləri 2-3 il ərzində araşdırıldıqdan sonra müvafiq qərar qəbul olunsa da, Azərbaycan Milli Məclisinin bununla bağlı müraciətinə prioritet qaydada baxılaraq, dərhal cavab verilib və dəstəklənib.

Əlavə edək ki, iclasda Azərbaycan parlamenti ilə yanaşı, ABŞ Konqresi və Nepal Federal Demokratik Respublikasının Milli Assambleyası və Gürcüstan parlamenti də müşahidəçi üzv qismində təşkilata qəbul edilib. Qeyd olunub ki, yeni müşahidəçi üzvlərin bu təşkilatda iştirakı ASEAN PA-nın fəaliyyətinə mühüm töhfə verəcəkdir.

Təntənəli mərasimindən sonra təşkilata yeni müşahidəçi üzv qəbul olunmuş parlamentlərin nümayəndələri ilə görüşlər keçirilib.

# Putindən sülh açıqlaması

**Sərhədin delimitasiyası, nəqliyyat və humanitar məsələlərlə bağlı qərarlar Bakı və İrəvana sülh müqaviləsi bağlamağa imkan verəcək.**

Bunu Rusiya Prezidenti Vladimir Putin İrəvanda keçirilən KTMT sammitində bildirib. Putin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderlərinin oktyabrın sonunda Soçidə baş tutan sammitini müsbət qiymətləndirib, həmçinin qeyd edib ki, aparılan danışıqlar prinsipial məsələlər üzrə gələcək kompromislər üçün yaxşı zəmin yaradıb. Prezident bildirib ki, birgə bəyanatda 2020 və 2021-ci illərdə əldə edilmiş yüksək səviyyəli üçtərəfli sazişlərə sadiqlik bir daha təsdiqlənib. O vurğulayıb ki, yalnız sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, humanitar problemlərin həlli ilə bağlı bu sazişlərin ardıcıl icrası ölkələr arasında münasibətlərin normallaşmasına kömək edəcək.

”Yalnız sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması və humanitar problemlərin həlli ilə bağlı əldə olunmuş razılaşmaları ardıcıl olaraq yerinə yetirməklə biz Ermənistanla Azərbaycan arasında münasibətlərin dayanıqlı normallaşmasına nail ola bilərik. Ümid edirik ki, bu, yekunda İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanmasına imkan verəcək”, - deyə Putin vurğulayıb.

# Ukrayna BMT-nin təcili iclasını keçirməyə çağırıb

**Ukrayna Rusiyanın hava zərbələrindən sonra BMT-nin təcili iclasını keçirməyə çağırıb. Bu barədə Ukrayna prezidenti Volodimir zelenski Tvitterdə bildirib.**

“Mən BMT-dəki səfirimizi Rusiyanın bugünkü zərbələrindən sonra BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsi barədə çağırışımızı çatdırmaq barədə təlimatlandırmışam. Mülki əhalinin öldürülməsi, mülki infrastrukturun dağıdılması terror aktıdır. Ukrayna beynəlxalq ictimaiyyətin bu cinayətlərə qətiyyətli reaksiya verməsini tələb edir” – deyə Zelenski vurğulayıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan Avropanın qəlbinə irəliləyir

***Son aylarda Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələri daha geniş vüsət alır. Prezident İlham Əliyev İtaliya, Bolqarıstan, Albaniyanın ardından bu dəfə Serbiyaya rəsmi səfər edib. Təbii ki, dünyada baş verən beynəlxalq proseslər fonunda Azərbaycanın əhəmiyyəti Avropa üçün durmadan artmaqdadır. Belə demək mümkündürsə, Azərbaycan sahib olduğu sərvətlər və həyata keçirilən siyasi strategiya sayəsində inamla Avropanın qəlbinə doğru irəliləyir və “köhnə qitə”ni fəth edir.***



## Gündəm

Qeyd edək ki, Azərbaycan Prezidenti Serbiyaya rəsmi səfəri çərçivəsində serbiyalı həmkarı Aleksandar Vuçiçlə həm geniştərkibli nümayəndə heyətlərinin iştirakı, həm də təkbətək görüş keçirib, müzakirələr aparıb.

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç “Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat”ı, “Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum”u və onun əlavəsi olan “Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi”ni imzalayıblar.

Bundan əlavə, “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş”, “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya”nın sertifikatlarının tanınması haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş”, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Serbiya Respublikasının Serbiya İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO ilə Serbiyanın Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu” da imzalanıb.



Dövlət başçılarının hansı məsələləri müzakirə etdikləri, nələrdə razılığa gəldiklərinə dair detallar isə Prezidentlərin mətbuata bəyanatlarla çıxışlarında əksini tapdı.

### Enerji əməkdaşlığı

**Serbiya Prezidenti Aleksandar Vuçiç azərbaycanlı həmkarını “ölkəsinin əsl dostu” adlandırıb. Onun sözlərinə görə, Serbiyanın Azərbaycanla bir çox oxşarlıqları var:** ”Hər iki ölkə öz ərazi bütövlüyünü qətiyyətli şəkildə qoruyub saxlayır və biz bir-birimizə beynəlxalq arenada, beynəlxalq təsisat və təşkilatlarda BMT Nizamnaməsinə və beynəlxalq ictimai normalara əməl edərək kömək edirik. Biz bu məsələdə bir-birimizə etibar edə bilərik. Bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik. Yalnız bir neçə ölkənin beynəlxalq hüquq normalarına riayət etməsindən başqa beynəlxalq hüquqdan çox az bir şey qalıb. Biz buna əməl etməyin gələcəyimiz üçün yeganə imkan və seçim olduğunu düşünürük. Bu gün biz Azərbaycanla Birgə Bəyanatı, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Memorandumu imzaladıq. Biz bu əməkdaşlığı yeni müstəviyə qaldırdıq. Bu gün biz bütün vacib məsələləri müzakirə etdik. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi

*“*

*İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir*

*Bizim əməkdaşlığımızın strateji hədəfləri var*

də yer almışdır. Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, yeddi, səkkiz və on ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcək. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək. Biz elektrik enerjisinin verilişini müzakirə etdik. Çünki Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi var.

Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu, həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və biz Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq.Bizim də bildiyimiz kimi Azərbaycan Serbiyanın etibarlı tərəfdaş olduğunu bilir. Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır”.

### 20 gündən sonra Bakı səfəri

**Serbiya Prezidentinin sözlərinə görə, tərəflər gübrə çatışmazlığı, neft-kimya müəssisələrinin fəaliyyəti barədə, hərbi-texniki əməkdaşlığı, nazirliklər arasında bir çox başqa məsələləri, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələlərini müzakirə ediblər:**

”Bizim üçün olduqca əhəmiyyət kəsb edən bir neçə məsələni müzakirə etmək üçün qarşıdakı 20 gündə mənim Bakıya, Azərbaycana qeyri-rəsmi, lakin mühüm səfərim gözlənilir. Məni bu gün əsası qoyulmuş strateji tərəfdaşlığı çox konkret razılaşmalar və əməli addımlarla dərinləşdirmək üçün Serbiya hökumətinin bir neçə naziri müşayiət edəcək. Görürəm ki, bu, zarafat deyil, baxmayaraq ki, kiməsə zarafat kimi görünə bilər, İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o, orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm mən bir az paxıllıq edirəm. Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər. Mən həqiqətən şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o, hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir. Qoy başqaları düşünsün ki, onlar dəyişiblər ya yox, yanaşma və prinsiplərini dəyişiblər ya yox”.

### Sözün əsl mənasında strateji tərəfdaş

**Prezident İlham Əliyev isə bildirib ki, iki ölkə arasında imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında, əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur:**

”Biz sözün əsl mənasında strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var. Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir. Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suverenliyi, ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir və bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaq. Eyni zamanda, Prezident Vuçiçin beynəlxalq təşkilatlarla bağlı dediyi sözlərə də şərh verərək bir neçə kəlmə demək istərdim. Bizim torpaqlarımız uzun illər işğal altında idi. Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim



məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik. Ona görə dünya ictimaiyyəti beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı öz təkliflərini verməlidir. Biz də Azərbaycan olaraq buna hazırıq. Çünki qəbul edilmiş qərarlar əgər həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə ki, bu, çox düşündürücüdür.

Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi, özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini - 10 min kvadratkilometrdən böyük olan ərazini yenidən qurur”.

### Hərbi əməkdaşlıq dərinləşəcək

**Dövlət başçısı bildirib ki, iki ölkə arasında təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar var. Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq:**

”Əlbəttə ki, ilk növbədə, biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır.

Bir sözlə, biz bu gün növbəti illər üçün bir gündəlik tərtib etdik. Əlbəttə ki, prezidentlər bu gündəliyi diqqətdə saxlayacaqlar, bu məsələlərin icrasına nəzarət edəcəklər. Bunu daha operativ və səmərəli şəkildə etmək üçün əlbəttə ki, biz tez-tez görüşməliyik”.

# Əlcəzair Azərbaycanla yeni müqavilə imzalayacaq

## Səfir: Əlcəzair Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir

***Bu** yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev Ərəb Ölkələri Liqasının Zirvə toplantısında iştirak etmək üçün Əlcəzairə ilk səfərini etdi. Dövlət başçısının tarixən Azərbaycanla dost münasibətləri olan Əlcəzairə səfəri, onun bu ölkənin tarixində böyük hünər rəmzinə, azadlıq ilhamvericisinə çevrilmiş Şəhidlər Abidəsini, Milli Mücahidlər Muzeyini ziyarət etməsi bir azərbaycanlı olaraq hər birimizi qürurlandırdı. Azadlığı uğrunda onminlərlə şəhid vermiş Əlcəzair xalqının əzabını, tarixi ərzində başına gətirilmiş müsibətləri eyni aqibəti yaşamış biz azərbaycanlılardan daha yaxşı kim anlaya bilər ki?! Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri cənab Abdelouahab Osmane ilə görüşüb ölkələrimiz arasında əlaqələr, yeni və icrasını gözləyən planlar haqqında söhbətləşdik. Əlbəttə ki, cənab səfir söhbətə gözlənildiyi kimi, Azərbaycan Prezidentinin Əlcəzairə səfərindən söz açmaqla başladı:*

### Bizim səfir

- İlk dəfə idi ki, Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının Zirvəsi toplantısına qatılmışdı. İlham Əliyev həm də 120 dövləti öz çətiri altında toplayan Qoşulmama Hərəkatının sədridir. Zirvəyə BMT nümayəndəsi və digər dünyamiqyaslı liderlər də dəvət edilmişdilər. Bu, çox vacib tədbir idi və Azərbaycan Prezidentinin dəvəti qəbul edib gəlməsi bizim üçün böyük əhəmiyyət daşıyırdı. Bilirsiniz, Qoşulmama Hərəkatı çox mötəbər təşkilatdır və Əlcəzair Dövləti həm təşkilatın daha aktiv fəaliyyət göstərməsinə, eləcə də onun sədri olan Prezident İlham Əliyevə ciddi dəstək verir. Ərəb Dövlətləri Liqasının Zirvəsi kimi diplomatik əhəmiyyətli siyasi tədbirin Əlcəzairdə keçirilməsi həm Qoşulmama Hərəkatının məqsdlərinin icrası baxımından, həm də Əlcəzairlə Azərbaycanın əlaqələri baxımından çox önəmli idi.

***- Yeri gəlmişkən, Zirvə toplantısında iştirak məqsədilə ölkənizdə olmuş Prezident İlham Əliyevin səfərini Azərbaycan - Əlcəzair əlaqələri prizmasından necə qiymətləndirirsiniz?***

- Prezidentin səfəri Əlcəzairlə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından çox əhəmiyyətlidir. Bildiyimiz kimi, cənab Prezident Əlcəzairə səfəri zamanı Milli Mücahidlər Muzeyini ziyarət etdi. Hansı ki, orada Əlcəzairin tarixi şəxsləri və onların əsrlərboyu müstəqillik və ölkənin bütövlüyü uğrunda mübarizəsi haqqında geniş məlumatlar verilir. Prezident İlham Əliyein muzeyi ziyarət etməsi, oradakı simalarla tanış olması və bütün bunların işıqlandırılmasının Əlcəzair üçün çox böyük əhəmiyyəti var idi. Bundan əlavə, Prezident Şəhidlər Abidəsini də ziyarət etdi. Bu isə Azərbaycanla Əlcəzair arasında qardaş münasibətləri baxımından çox əhəmiyyətlidir. Orada nə varsa, Əlcəzairin haqq mübarizəsini, insanların əsrlərboyu çəkdiyi əzabəziyyəti əks etdirir.

***- Əlcəzair və Azərbaycan dünyanın böyük qaz istehsalçıları və ixracatçılarıdır. Hazırda iki ölkə arasında bu sahədə nə kimi əməkdaşlıq var? Ukrayna - Rusiya müharibəsinə görə dünyada qaza tələbat artıb, bu istiqamətdə Əlcəzair hansı addımları ata bilər?***

- Əlcəzair Avropa qitəsini və Avropa İttifaqını təbii qazla təmin edən əsas tədarükçülərdən biridir. Enerji sahəsində əməkdaşlığa gəlincə, Əlcəzairin xarici işlər naziri avqust ayında Azərbaycana səfər edərək nazir Ceyhun Bayramovla görüş keçirmişdi.

Məhz həmin görüşdə neft-qaz sahəsində əməkdaşlığa dair müzakirələr, yüksək səviyyəli məsləhətləşmələr aparılıb və saziş layihəsi hazırlamaq təklif olunub. Bu saziş layihəsi üzərində bir müddətdir iş gedir. Yaxın on gün ərzində energetika naziri Pərviz Şahbazovun Əlcəzairə səfəri gözlənilir. Güman ki, səfər çərçivəsində neft-qaz sahəsində saziş layihəsini müzakirə etmək və imzalamaq fürsəti olacaq. Yəni iki ölkə arasında neft-qaz sahəsində əməkdaşlığa dair işlər gedir. Saziş layihəsində nəzərdə tutulan əsas detal iki dövlətin rəhbərləri arasında neft və qazın istehsalı, satışı, ixracı və sair barədə yüksək səviyyəli məsləhətləşmələrin aparılmasıdır. Hər iki ölkə "OPEC+"un və Qaz İxrac Edən Ölkələr Forumunun üzvüdür və bu sahədə də vacibdir ki, Əlcəzairlə Azərbaycan arasında mütəmadi məsləhətləşmələr aparılsın. Bu yerdə qeyd edim ki, gələn il Əlcəzairdə qaz ixrac edən ölkələrin forumu təşkil olunacaq. Ümid edirik ki, Azərbaycan da həmin tədbirdə yüksək səviyyədə təmsil olunacaq.

***- Azərbaycan bazarında Əlcəzair məhsullarını görə bilmirik. Sizcə, səbəb nədir, ümumiyyətlə, ölkələrimiz bir-birinə nə satır, nə alır?***

- Təəssüf ki, hələlik ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrə istiqamət verəcək razılaşma yoxdur və bunun üzərində iş gedir. Biz də bununla əlaqədar mütəmadi görüşlər keçiririk. Maliyyə, kənd təsərrüfatı sahəsində saziş layihələrinin qəbul olunmasını gözləyirik. Hesab edirəm ölkələrimiz arasında paylaşılacaq, bölüşüləcək çox şey var.

***- Konkret olaraq bizim bazara nə çıxara bilərsiniz?***

- Bir çox məhsul var ki, buradan Əlcəzairə ixrac oluna və ya bizim ölkəmizdən Azərbaycan bazarına çıxarıla bilər. Yaxın günlərdə Azərbaycanda "Medinex" tibb sərgisi keçirilib və orada Əlcəzairin yeddi şirkəti iştirak edib. Qeyd edim ki, əczaçılıq sahəsində əməkdaşlığı genişləndirmək üçün Azərbaycanın səhiyyə naziri ilə müzakirələrimiz nəzərdə tutulub. Əlcəzairin əczaçalıq sahəsində təcrübəsi çoxdur və biz bu sahədə Azərbaycan bazarına çox məhsul çıxara bilərik və hazırda bu istiqamətdə danışıqlar gedir. Əlcəzairin Xarici işlər naziri Ramtan Lamamra avqustda Bakıya səfəri zamanı həmkarı Ceyhun Bayramovla görüşdə siyasi məsləhətləşmələr sahəsində saziş layihəsi imzaladılar. Görünən odur ki, nazirlərimiz bu sahədə də əməkdaşlığı gücləndirmək niyyətindədirlər. Ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparılması iki ölkənin maraqları baxımından çox əhəmiyyətidir. Çünki bu mədəniyyət, arxiv sənədləşmə, yəni bütün sahələrdə ölkələrimiz arasında münasibətləri nizamlamaq üçün əsas mexanizm kimi təklif olunub. Artıq bu müstəvidə bəzi saziş layihələri hazırlanmaqdadır, hətta bəziləri qəbul olunub. Azərbaycanın energetika naziri Pərviz Şaxbazovun Əlcəzairə səfəri zamanı energetika, neft-qaz sahələrində bir sıra saziş layihələrinin dəqiqləşdirilməsi aparılacaq və hətta ola bilər ki, imzalansın da. Bundan əlavə, Əlcəzairin rəsmi mətbuat orqanı ilə AzərTAG arasında saziş layihəsi təsdiqlənəcək, maliyyə palataları arasında əməkdaşlığa dair müzakirələr aparılır.

> “
>
> *Mən Kəlbəcərdə olarkan nəfəskəsən mənzərələri seyr etmişdim*

***- Əlcəzair futbol sahəsində özünəməxsus təcrübəyə malikdir. Məncə, idman sahəsində əməkdaşlığa da diqqət ayırmalıyıq...***

- Ölkələrimiz arasında idman sahəsində yaxşı əlaqələr möcuddur. Xüsusilə də güləş sahəsində Azərbaycanın təcrübəsi çox böyükdür. Burada güləş sahəsində yaxşı idmançılar və məşqçilər var ki, onlar uzun müddətdir beynəlxalq yarışlarda iştirak edərək böyük uğurlar qazanırlar. Yeri gəlmişkən, yaxın gələcəkdə Əlcəzair güləşçiləri məşq üçün iki ay müddətinə Azərbaycana göndəriləcək və burada azərbaycanlı məşqçilər onlara təlim keçəcəklər. Yayda da güləşçilərimizə Bakıda azərbaycanlı məşqçilər iki həftə ərzində təlim keçmişdilər və onlar ölkəmizə dönəndən sonra Oranda təşkil olunan yarışda üç qızıl medal qazandılar. Bütün bunları nəzərə alaraq Azərbaycanın gənclər və idman naziri ilə görüşüm zamanı təklif etdim ki, idmanın məhz bu sahəsi üzrə əməkdaşlığa dair saziş layihəsi hazırlayıb imzalayaq. Məncə, hər iki ölkə idman sahəsində bir-birinin təcrübəsindən maksimum yararlanmalıdır.



**Abdelouahab Osmane,**
Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri

***- Tək idman deyil, bütün sahələrdə ölkələrimiz arasında əlaqələri genişləndirmək, xalqlarımızı bir-birinə daha çox tanıtmaq üçün qarşılıqlı şəkildə gediş-gəlişi artırmalı, insanlarımız bir-biri ilə daha çox ünsiyyət qurmalıdırlar...***

- Haqlısınız. Əlcəzair Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Ölkələrimiz arasında diplomatik münasibətlər 2015-ci ildə yaradılıb. Bu gün Əlcəzairin Azərbaycanda, Azərbaycanın isə Əlcəzairdə səfirlikləri fəaliyyət göstərir. Bizim bir-birimizlə paylaşacağımız çox şeylər var və siyasi iradə də olduqda, hansı ki, bu var, ölkələrarası əlaqələrimiz daha da möhkəmlənəcək. Biz istəyirik ki, iki ölkə arasında müəyyən adda assosiasiya yaradaq və orada əsasən keçmiş nəslin nümayəndələri təmsil olunsunlar. Bilirsiniz, çox sayda vətəndaşlarımız var ki, Sovet dönəmində ölkələrimizdən birində ya təhsil alıblar, ya da əmək fəaliyyəti ilə məşğul olublar. Məhz bu assosiasiya xalqlarımız arasında keçmişdə qoyulan dostluq ənənəsini davam etdirməli və yeni nəsillərə mayak rolu oynamalıdır. Nəzərinizə çatdırım ki, parlamentlərimiz arasında da dostluq əlaqələri inkişaf etdirilməkdədir. Bu ilin iyununda Əlcəzairin Milli Xalq Məclisində Əlcəzair - Azərbaycan dostluq qrupu yaradılıb, bu aydan etibarən isə Azərbaycanın Milli Məclisində Azərbaycan - Əlcəzair parlament işçi qrupu fəaliyyətə başlayıb. Bu cür qrupların olması iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın inkişafı üçün çox vacibdir. Gözlənilir ki, yaxın gələcəkdə bu iki parlament dostluq qrupu arasında görüşlər keçirilsin.

***- Assosiasiyanın yaradılacağını dediniz, mədəniyyət mərkəzi rolunu oynayacaq, ya necə? Hesab edirəm, Azərbaycanda ərəb mədiyyət mərkəzinin açılması zəruridir. Əvvəllər Misir Mədəniyyət Mərkəzi vardı, tək Misir deyil, ərəb dünyasını məhz orada kəşv edirdik. Tez-tez sərgilər təşkil olunur, ərəb dili kursları keçirilir, ərəb mədəniyyətini, incəsənətini, ədəbiyyatını orada öyrənirdik. Amma həmin mərkəz xeyli vaxtdır bağlanıb. Əlcəzair hökuməti belə bir mərkəz aça bilər Bakıda?***

- Ötən həftələrdə mədəniyyət naziri ilə görüşdə geniş müzakirələr aparmışıq. Bundan əlavə, ikinci Nizami Gəncəvi Forumu keçiriləcəkdi, hansı ki təxirə salınıb, orada Əlcəzair mədəniyyət nazirinin iştirakını təklif etmişdim və hətta cənab nazirin razılığını da almışdım. Amma təəssüflər olsun ki, pandemiya səbəbindən forum keçirilmədi deyə nazir də Bakıya gəlmədi. Bu arada, cənab nazirimiz Bakıda Əlcəzair Mədəniyyəti həftəsi keçirilməsini təklif edib. Nazir istəyir ki, mədəniyyət həftəsində Əlcəzair mədəniyyəti, incəsənəti, milli geyim nümunələri, musiqisi - zəngin Əlcəzair mədəni iris təbliğ olunsun. Bilirsiniz, Əlcəzair mədəniyyəti çox zəngindir və istəyirik ki, irsimizi hər yerdə tanıdaq.

***- Coğrafi mənada ölkələrimiz bir-birindən xeyli uzaqdır, bu, gediş-gəlişə təsir edir?***

- Bir ay öncə iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşdə viza məsələsini müzakirə etmişdik. Çünki əvvəllər Azərbaycana gəlmək istəyən əlcəzairlilər viza almaq üçün onlayn müraciət edə bilirdilər. Amma pandemiya səbəbindən bu yolla viza verilməsi dayandırılıb. Gərək gəlmək istəyən adama buradan xüsusi dəvət məktubu getsin ki, o, müraciət edə bilsin.

Ümumiyyətlə, biz ümid edirik ki, Azərbaycanın Nazirlər Kabineti Kovid pandemiyası səbəbindən tərtib etdiyi siyahıdan Əlcəzairin adını çıxaracaq və yenidən əlcəzairlilərə viza verilməsi presuduru bərpa olunacaq. Bundan sonra isə Azərbaycana gələcək əlcəzairli turistlərin sayında sürətli artım olacağına əminəm. Bu halda Əlcəzair və Azərbaycanın turizm şirkətləri arasında da sıx əlaqə yaracaq və nəticədə insanlar Azərbaycandan Əlcəzairə, Əlcəzairdən də Azərbaycana rahat şəkildə gedib-gələ biləcəklər. Mən bu arada qeyd edim ki, əlcəzairlilər dünyanın hər yerinə səfər etməyi çox sevirlər və əlbəttə, onlar Azərbaycana da böyük həvəslə gələcəklər.

***- Ölkələrimiz arasında birbaşa hava yolunun açılması mümkündür? Bunu üçüncü ölkənin üzərindən də etmək olar?***

- Hələlik birbaşa hava yolunun açılması məsələsi müzakirə olunmur. Ölkələrimizə səfər etmək üçün Türk Hava Yollarının xidmətindən yararlanmaq olar - Əlcəzair-İstanbul-Bakı və əksinə. Amma biz gələcəyə inamla baxırıq. Mən və Azərbaycanın Əlcəzairə yeni təyin olunmuş səfiri Tural Rzayev çalışırıq ki, ölkələrimiz arasında hər sahədə əlaqələr yüksək səviyyədə qurulsun, inkişaf etsin.

***- İşğaldan azad edilmiş bölgələrimizdə olmusunuz və təbii ki, oradakı vəziyyətin şahidisiniz. Bilmək istəyirik: Əlcəzair dövləti və ya hansısa özəl şirkəti bu ərazilərin bərpasında rol oynamaq istəyir?***

- Bəribaşdan deyim ki, Əlcəzair şirkətlərinin beynəlxalq müstəvidə bu cür proseslərdə heç bir təcrübəsinin olmamasından təəssüflənirəm. Əlbəttə, neft-qaz sahəsində böyük və təcrübəli şirkətlərimiz var, onlar Azərbaycana hər cür dəstək verə bilərlər, amma tikinti-quruculuq müstəisində belə təcrübəli şirkətlərimiz yoxdur.

Mən Ağdamda və Kəlbəcərdə olmuşam, Şuşaya da dəvət edilmişəm, təəssüf ki, o vaxt bir az xəstə idim deyə gedə bilmədim. Amma növbəti dəfələrdə də Qarabağ zonasına təşkil olunacaq səfərlərdə məmnuniyyətlə iştirak edəcəyəm. Ümumiyyətlə, Azərbaycandakı xarici ölkə səfirlərini həmin bölgələrə dəvət etmək lazımdır ki, reallığı öz gözləri ilə görsünlər. Azad olunmuş torpaqların mahiyyətini yalnız oranı görməklə anlamaq, orada baş verənləri hiss etmək mümkündür. Mən Kəlbəcərdə olarkən nəfəskəsən mənzərələri seyr etmişdim. Ora çox heyranedici təbiətə malikdir. Hətta Kəlbəcərdə olarkən yerli baldan dadmaq fürsətim də oldu və dadı hələ də damağımdadır.

*✍ Vüsal Tağıbəyli*



# Partiyaları üz-üzə qoyan qanun

◂ əvvəli 1-ci səhifədə



**■ Fazil Mustafa, deputat, Böyük Qurtuluş Partiyasının sədri:**

- Azərbaycanda bir hakim partiya var, hər kəsə məlumdur. Amma bu gün digər siyasi partiyaların da əsas niyyəti iqtidarda olmaqdır. Gəlin görək hakimiyyətdə olmaq üçün digər partiyaların nə qədər şansı və imkanı var. Belə olan halda hakimiyyət siyasi partiyalardan qorxmamalıdır, yeni münbit istiqamət yaradılmalıdır. İqtidar maraqlı olmalıdır ki, siyasi partiyalar inkişaf etsin, rəqabət mühiti olsun.



**■ Asim Mollazadə, deputat, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri:**

- Siyasi partiyalar haqqında qanunun qəbulu Azərbaycanda yeni sistem formalaşdırmağa və demokratik dövlət kimi güclənməyə böyük töhfədir. Müəyyən məqamlar var ki, hansısa qanun tərəfindən məhdudiyyət qoyulur, həm partiya yaradıcılarına, həm partiyada siyasi fəaliyyətlə məşğul olan şəxslərə Məsələn, dini ekstremizmin və dini faktorun siyasətdən kənarlaşdırılması kimi.

Bu, bir ehtiyacdır. Xarici dövlətin Azərbaycanın siyasi sisteminə hansısa vardanyanların, medvedçukların yol açmasına imkan verməmək zənnimcə, çox məntiqlidir və zəruridir. Dövlətin partiya fəaliyyətinə müdaxiləsinin qarşısı alınmalıdır. Bunlara ehtiyac varmı? Düşünürəm ki, bütün məhdudiyyətlər ciddi şəkildə azaldılmalı və ya qanundan çıxarılmalıdır.



**■ Arzuxan Əlizadə, AMİP sədri:**

- "Siyasi Partiyalar Haqqında" Qanun irad və təkliflər nəzrə alınmaqla yeni redaksiyada Milli Məclisin saytında dərc edilib. Birinci layihədən fərqli olaraq, ikinci layihədə bir sıra məqamlarla bağlı yumşalmalar var. İkinci qanun layihəsi daha yumşaq varianta hazırlansa da, bəzi qəbul etmədiyimiz məqamlar da var. Bunların içərisində qəbul etmədiyimiz məqam partiya üzvlərinin şəxsi idendfikasiya kodunun verilməsidir ki, bu şəxsi məlumatların gizliliyinin pozulmasıdır. Hesab edirik ki, buna xüsusi diqqət yetrilməlidir. Hesab edirəm ki, bu da müzakirələr əsnasında yumşaldıla bilər.



**■ Fuad Əliyev, ALDP sədri:**

- Yeni redaksiyada təqdim olunan "Siyasi Partiyalar Haqqında" Qanun layihəsində hələ də mübahisəli və müzakirəyə ehtiyacı olan məsələlər qalır.Yeni redaktədə üzv sayının 4500-dən aşağı olmasını əsas götürüb qeydiyyatının ləğvi ilə bağlı məhkəməyə müraciət etmək, düzgün deyil. Üzvlərin sayı partiyanın fəaliyyətinə təsir etməməlidir. Üzvlərin sayı qeydiyyat üçün lazımdırsa, göstərildiyindən 500 nəfər az olması onun fəaliyyətinə heç bir əks təsirini göstərə bilməz. Üzvlük haqqı ilə bağlı yeni redaktə də mübahisəlidir. Partiya sədri hesab edir ki, "bir üzvün partiyaya ödədiyi üzvlükhaqqı minimum əməkhaqqının 35 mislindən artıq ola bilməz" iddiası da sual yaradır. Hər bir partiyanın üzvlükhaqqı ilə bağlı məsələ nizamnamədə yazılıb. Məsələn, ALDP-də ən aşağı üzvlükhaqqı 1 manatdır. Amma üzvlükhaqqı kimi 50, 10, 5 manat ödəyənlər olur. Əgər partiya üzvü üzvlükhaqqı kimi hansısa məbləği ödəmək istəyirsə, ona qadağalar qoymaq, bunu çərçivəyə salmaq nəyə lazımdır. Düşünürəm ki, bu da qəbul olunmayan məsələdir. Partiyanın üzvü istəyir ayda 1 000 manat üzvlükhaqqı versin. Niyə bunu çərçivəyə salmaq istəyirlər, başa düşmürəm. İanələrin də çərçivəyə salınmasını düzgün hesab etmirəm. Tutaq ki, biznes adamları partiyaya 1 milyon manat ianə etmək istəyirsə, niyə etməsin? Əslində, bu partiyaların fəaliyyətinin daha geniş şəkildə inkişaf etməsinə təkan verə bilər. Bu təcrübə Qərbdə, ABŞ-da keçirilən seçkilərdə dəfələrlə sınanıb. ABŞ-da Baydanenin son seçkilərində gənc biznes adamı onun kampaniyasına 400 milyon pul xərcləyib. İanələrin çərçivəyə salınıb, məbləğin "10 mindən yuxarı olmamalıdır", yaxud "Üzvlükhaqqı əməkhaqqının 35 mislindən yuxarı olmamalıdır" təklifləri ilə razı deyiləm.

**Bizim şərh**

Hər bir demokratik dövlətin daxili siyasi sisteminin ayrılmaz tərkib hissəsi olan siyasi partiyaların fəaliyyəti dövlətin inkişafına, milli maraqların müdafiəsinə və cəmiyyətin tələblərinə cavab verməlidir. Azərbaycanda uzun illərdir ki, siyasi partiyaların fəaliyyətinin tənzimlənməsində mövcud qanunvericiliyin müasir dövrün tələb və çağırışlarına cavab verməsi üçün dəyişikliklərin zərurət olduğuna dair vahid fikir mövcuddur. Son bir neçə ayda sözügedən istiqamətdə mühüm addımlar atılıb. Ölkədə fəaliyyət göstərən, siyasi mövqeyindən asılı olmayaraq, bütün partiyaların qatıldığı ictimai müzakirələr təşkil edilərək hazırda yeni qanun layihəsi hazırlanıb. İlkin müzakirələrdə narazılıq yaradan bir sıra məqamlar qanun layihəsindən çıxarılıb və ya redaktə edilib. Proses davam edir. Lakin unutmamalıyıq ki, 30 il fərqli tələblər çərçivəsində fəaliyyət göstərən siyasi partiyaların qısa zamanda yeni tələblərə uyğunlaşması, bu prosesin ağrısız və narızılıq olmadan başa çatmasını gözləmək doğru deyil. Hər kəsə məlumdur ki, hamını, hər kəsimi razı sala biləcək ideal qanun yoxdur. Hər zaman kimsə, hansısa məqamdan narazı qalır. Əsas odur, bu narazılıqlar dialoq və müzakirələr yolu ilə açıq şəkildə müzakirəyə çıxarılsın, sonda vahid bir konsensus əldə edilsin.

Hər bir siyasi qüvvə unutmamalıdır ki, 44 günlük Vətən Müharibəsi zamanı əldə edilən birlik və həmrəyliyə Azərbaycanın indi daha çox ehtiyacı var. Bölgəmizdə cərəyan edən geosiyasi proseslər, beynəlxalq münaqişələr hazırkı məqamda milli maraqlarımızı, təhlükəsizliyimi və suverenliyimizi daha açıq şəkildə təhdid etməyə başlayıb. Bu səbəbdən, birlik və həmrəyliyimizi qorumaq, xarici çağırış və təhdidlərə qarşı daxili gücümüzü bütünləşdirmək üçün milli mənafe naminə şəxsi maraqlardan geri çəkilməyin əsl zamanıdır. Bu cür yanaşma Azərbaycan cəmiyyətində belə mövqe ortaya qoymağı bacaran siyasi partiyaların mövqeyini zəiflətməyəcək, əksinə, daha da gücləndirəcək.

*✍ Azad Əliyev*

# Böyük Qayıdış tezləşəcək

**Layihə**

***İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış daha da tezləşəcək. Həmin ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı” bu istiqamətdə əsas yol xəritəsi sayıla bilər.***

*“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı böyük vəzifələri özündə əks etdirən bir sənəddir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”



Qeyd edək ki, qayıdışla bağlı təsbit olunmuş strateji istiqamətlər üzrə Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcəkdir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcəkdir.

Sənədə əsasən, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu, Milli Prioritetlərə əsaslanan ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb.

Bu müddət ərzində həm də işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. İqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcək. Ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan “ağıllı” biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək. Mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət?özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaq. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır. Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaqdır.

İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarət- xidmət-logistika mərkəzləri şəklində iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin yaradılması istiqamətində işlər görüləcək. İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaqdır.

Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə “yaşıl enerji zonası” konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq.

■ **Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib ki, işğaldan azad olunmuş ərazilərə insanların qayıtması, bu yurd yerlərinin abadlaşdırılması, həmin ərazilərdə yenidən həyatın canlandırılması hər bir azarbaycanlının müqəddəs arzusu olub:** “Bu gün həmin arzu, istək reallaşır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox böyük uzaqgörənliyi, müzəffər ordumuzun gücü və qüdrəti, xalqımızın birliyi nəticəsində 30 ildən sonra həmin torpaqlar işğaldan azad olundu və bu gün öz sakinlərini gözləyir. İlk gündən həmin ərazilərin abadlaşdırılması, bərpa və yenidənqurulması, infrastruktur layihələrinin həyata keçirilməsi ölkə rəhbərinin başlıca vəzifəsi olub və cənab Prezident dəfələrlə xatırladıb ki, biz işğaldan azad olunmuş torpaqlarımızı tez bir zamanda bərpa edəcəyik, həmin torpaqları cənnətə, gülüstana çevirəcəyik. Əlbəttə ki, bu çox böyük səy və maliyyə tutumu tələb edir.



**Tahir Rzayev,**
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri

Ancaq Azərbaycan iqtisadiyyatı güclüdür, davamlıdır, dayanıqlıdır və bu gün dövlət, dövlət rəhbəri qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün lazım olan bütün tədbirləri görür. Baxın, zəfərdən artıq 2 ilə yaxın vaxt keçir və həmin ərazilərdə bu müddət ərzində çox möhtəşəm işlər görülüb. İki böyük beynəlxalq hava limanı istifadəyə verilib, geniş yollar çəkilib, tunellər qazılıb, həmin ərazilərdə elektrik stansiyaları quraşdırılaraq istifadəyə verilib, yeni su anbarları yaradılır, körpülər salınır, eləcə də bir çox məsələlər, dəmir yolu, nəqliyyat, hava yolu istiqamətində səmərəli işlər həyata keçirilir.

Ağdamda, Füzulidə məktəblərin tikilməsi, xəstəxanaların inşa olunması, həmçinin digər ərazilərdə təmir-tikinti işlərinin sürətlə aparılması göstərir ki, tez bir zamanda həmin torpaqlarda həyat canlanacaqdır. Bu gün eyni zamanda, Şuşada da çox möhtəşəm işlər görülür və son dövrlərdə Şuşada keçirilən bir çox beynəlxalq tədbirlər və həmin tədbirlərdə nəinki ölkə vətəndaşlarının, xarici ölkə rəhbərlərinin, siyasətçilərin, jurnalistlərin iştirakı onu deməyə əsas verir ki, Şuşamız həqiqətən də az bir müddətdə Azərbaycanın mədəniyyət paytaxtı kimi öz gözəlliyini, mədəniyyətini bütün dünyaya göstərir”.

Millət vəkili vurğulayıb ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” Qarabağda görülən işləri daha da sürətləndirəcək: “Əlbəttə ki, bu günlərdə cənab Prezidentin təsdiqlədiyi “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”ı böyük vəzifələri özündə əks etdirən bir sənəddir. Bu sənədin aydın hədəf və vəzifələri həmin Proqramda əks olunub.

Sözsüz ki, əsas vəzifə kimi həmin ərazilərdə təhlükəsizliyin, normal həyatın təmin edilməsi qarşıya məqsəd qoyulub. Aydın məsələdir ki, həmin ərazilər Ermənistan tərəfindən işğal dövründə minalanıb və torpaqlarımıza 1 milyondan çox mina basdırılıb. Təbii ki, torpaqlar minadan təmizlənmədən orada yaşamaq, həyatı yenidən bərpa etmək təhlükəlidir. Ona görə də sözügedən Proqramda ilk olaraq ərazilərin təhlükəsizliyinin təmin edilməsi əsas hədəf kimi qoyulub. Sonrakı mərhələdə isə orada müasir qəsəbələrin salınması, yaşayış binalarının tikilməsi önəmli bir məqsəd kimi sənəddə öz əksini tapmışdır. Bundan sonra həmin ərazilərə mərhələli və davamlı şəkildə əhalinin köçürülməsi nəzərdə tutulur. Eyni zamanda, iqtisadiyyatın inkişafı ilə əlaqədar tədbirlərin görülməsi, həmin zonalarda bir çox emal müəssisələrinin istifadəyə verilməsi, aqrar sahənin inkişaf etdirilməsi, turizmin inkişafı, ekoloji tarazlığın təmin olunması başlıca məsələlərdəndir.

Yəni, bu Proqram olduqca genişhəcmlidir və bununla dövlət həmin ərazilərdə həyata keçiriləcək layihələrlə bağlı qarşıya yeni vəzifələr qoymuş olub. Bu istiqamətdə işlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaitlərinin ayrılması nəzərdə tutulmuşdur. Məsələn, gələn ilin büdcə sənədində bu istiqamətə 3 milyard manata yaxın vəsait nəzərdə tutulur. Əvvəlki illərdə də azad olunmuş ərazilərə büdcədə vəsait ayrılıb və həmin vəsaitlər yenidənqurma işlərinə sərf edilib. Bu da göstərir ki, gələn il və növbəti illərdə də Qayıdış Proqramı uğurla yerinə yetiriləcək”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

---

**Layihə**

***Gələn il Azərbaycanda 2022-ci illə müqayisədə təhsilə daha çox vəsait ayrılacaq. Belə ki, 2023-cü ilin dövlət büdcəsində 4,4 milyard manat təhsil xərcləri nəzərdə tutulur. Bu, “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” qanun layihəsində əksini tapıb. Sənəddə bildirilib ki, nəzərdə tutulan vəsait 2022-ci illə müqayisədə 536,5 milyon manat və ya 13,8 faiz çoxdur.***



# Təhsil xərcləri artırılır

Maliyyə Nazirliyindən verilən məlumata görə, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strategiyasında müəyyən edilmiş 5 milli prioritetdən biri “rəqabət qabiliyyətli insan kapitalı”nın formalaşdırılmasıdır. Strategiya ilə nəzərdə tutulmuş hədəfləri mərhələlərlə təmin etmək üçün 2023-cü ildə təhsil xərcləri 4 milyard 423 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da cari ilə nisbətən 537 milyon manat və ya 13,8 faiz, 2021-ci ilin icra göstəricilərinə nisbətən isə 1 milyard 331 milyon manat və ya 43 faiz çox deməkdir. 2019-cü illə müqayisədə 2023-cü ildə təhsil xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,2 faizbənd, mütləq ifadədə isə 2 milyard 227 milyon manat və ya 2 dəfə artıq olacaqdır.

Gələn il 150 min nəfərədək uşağı əhatə edəcək ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının açılması, 8 milyon nüsxə pulsuz dərsliklərin şagirdlərə verilməsi, xüsusi təhsillə əhatə olunan 12 min 700 nəfər uşağın təhsil, tibb, sağlamlıq və reabilitasiya müəssisələrinə aparıb-gətirmək üçün valideynlərinə və ya qanuni nümayəndələrinə aylıq müavinətin, 19 min nəfərədək gənc mütəxəssisin kənd rayonlarında yerləşən ümumi təhsil məktəblərində işə cəlb olunmalarının stimullaşdırılması məqsədi ilə kompensasiyanın və aylıq əlavənin ödənilməsi, həmçinin təhsil sisteminin informasiyalaşdırılması ilə bağlı xərclər üçün 152 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Növbəti ildə ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi, ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı (təqribən 463,4 min nəfər) imtahanların keçirilməsi üçün 15 milyon manat, dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə 128 min nəfərdən çox təhsilalanın 258 milyon manat təhsil xərcinin və 120,1 min nəfərin isə 149,0 milyon manat təqaüd xərcinin maliyyələşdirilməsi üçün cəm olaraq 407,0 milyon manat vəsait proqnozlaşdırılmışdır. 2022-ci ilə nisbətən dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayının 12,2 min nəfər, təqaüdalanların sayının isə 9,5 min nəfərdən çox artacağı gözlənilir. Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığına rəvac verən tələbə krediti fondu üçün 8,0 milyon manat vəsait ayrılmaqla Fondun dövlət büdcəsi hesabına formalaşan resurs zərfi 110 milyon manata çatdırılacaq.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Milli Məclisin deputatı Ceyhun Məmmədov hesab edir ki, son illər bu sahəyə ayrılan vəsaitlərin həcmində ciddi artım müşahidə edilir: “Düşünürəm ki, 2023-cü ilin büdcəsində təhsilə ayrılan vəsait kifayət qədərdir.**

Bu təxminən 2 il bundan öncəki vəsaitlə müqayisədə 50 faiz artım deməkdir. Burada söhbət 4 milyard 423 milyon manat məbləğində vəsaitdən gedir. Sözsüz ki, bu əvvəlki illərlə müqayisə böyük bir vəsaitdir. Bu onu göstərir ki, ölkəmizdə dövlətin təhsilə kifayət qədər diqqət və qayğısı var”.

Deputat vurğulayıb ki, büdcədən vəsaitin artırılması elm və təhsil sahəsində keyfiyyətin yüksəlməsinə kömək edəcək: “Bu vəsait bizə imkan verəcək ki, təhsilimizi daha da inkişaf etdirək. Sadəcə olaraq vəsaitlərin xərclənməsinə ciddi nəzarət olunmalıdır. Eyni zamanda, nəzərdə tutulan vəsaitlərin nəticəyönümlü olması istiqamətində də mütləq addımlar atılmalıdır. Bu məsələdə aidiyyəti qurumların üzərinə çox ciddi vəzifələr düşür ki. Onlar bu işi dəqiq və ciddi şəkildə yerinə yetirməlidirlər ki, qarşımıza qoyduğumuz hədəf və məqsədlərə çata bilək”.

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Nadir İsrafilov da son illər təhsil sahəsinə ayrılan vəsaitlərin həcminin nəzərəçarpacaq dərəcədə artdığını vurğulayıb:**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

“Biz görürük ki, bu gün ölkəmizdə büdcədən ən çox vəsait hərbi və müdafiə sahəsinə ayrılır, daha sonra elm və təhsil sahəsi gəlir. Təhsilə ayrılan vəsait də ilbəil artır. Bu, ölkə başçısının təhsilə olan qayğısını göstərir. Eyni zamanda elm və təhsil sahəsinin prioritet olduğu görünür. Təbii ki, hərbi və müdafiə sahəsinə ayrılan vəsaitin daha çox olması başadüşüləndir. Biz müharibə şəraitinin tam sovuşmadığını, təxribatların davam etdiyini görürük. Buna görə də, müdafiə sənayesini gücləndirməliyik. Bunun müqabilində yenə də təhsilə vəsait ayrılmasını müsbət qiymətləndirirəm. Digər tərəfdən, 44 günlük Vətən müharibəsindən sonra Qarabağa ”Böyük Qayıdış”ımızı nəzərə almalıyıq. Bizim Qarabağda görüləcək işlərimiz, həyata keçiriləcək layihələrimiz var. Bu gün əsas diqqət Qarabağadır. Bütün bunların fonunda təhsilə ayrılan vəsaiti o qədər də az hesab etmək olmaz”.

Ekspert deyib ki, son illər təhsilin məzmun və formaca yeniləşməsi, təhsildə mütərəqqi metod və

*“Bu onu göstərir ki, ölkəmizdə dövlətin təhsilə kifayət qədər diqqət və qayğısı var*

müasir texnologiyaların tətbiqi sahəsində xeyli nəzərəçarpacaq işlər görülüb: “Bu günədək həm də ali təhsilin daha açıq və daha əlçatanlığı istiqamətində sistemli addımlar atılıb. Xeyli tələbə dövlət vəsaiti hesabına ali təhsil almaq imkanları qazanıb, dövlət sifarişli plan yerlərinin sayı artırılıb.

Eyni zamanda təhsilin müxtəlif pillələrində təqaüd məbləğləri orta hesabla 20 faiz artırıldı. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı çərçivəsində irəliləyiş əldə olunub. Bundan başqa, tələbələrə ayrılan xərclərin məbləği ilbəil artırılır. Pandemiya dövründə dövlət həssas qrupdan oln tələbələri diqqətdən kənarda qoymadı. Bütün bunlar onu deməyə əsas verir ki, biz qarşıya qoyulan hədəflərə nail olmaq istiqamətində əhəmiyyətli addımlar atırıq. Bizim əsas məqsədimiz təhsilin hamı üçün əlçatan olmasıdır”.

Amma mütəxəssis bununla yanaşı bildirib ki, təhsillə bağlı problemlərin həllini yalnız dövlətin üzərinə yükləmək doğru olmaz: “Burada bir məqam da var ki, hər şeyi dövlətdən gözləməməliyik. Bununla bağlı kifayət qədər dünya təcrübəsi var. Məsələn, dünya ölkələrində ayrı-ayrı universitetlər həm də öz gəlirləri hesabına müəyyən nailiyyətlər qazanırlar. Bizdə də 6 universitetə publik hüquqi şəxs statusu verilib. Bu gün pedoqoji kolleclərə, hətta orta məktəblərə publik hüquqi şəxs statusu verilməsindən söhbət gedir. Anlamaq lazımdır ki, təhsil tək dövlət işi deyil, təhsil həm də ümumxalq işdir, ümumilli məsələdir. Ona görə də, təhsillə bağlı problemlərin həllini yalnız dövlətin üzərinə atmaq düzgün deyil. Məncə, universitet və digər təhsil müəssisələrimiz öz imkanları hesabına gəlir qazanmalıdırlar. Eyni zamanda, beynəlxalq təcrübədə imkanlı şəxslər, biznesmenlər təhsil sahəsinə dəstək olurlar. Bizdə də iş adamları təhsil sahəsinə dəstək ola bilərlər. Tutaq ki, təhsil kreditləri və tələbələrə ayrılan vəsaitlərə iş adamları da dəstək olmalıdır. Bu təcrübə vaxtilə bizdə də olub. 20-ci əsrin əvvəllərində xeyriyyəçilərimiz olub ki, onlar öz vəsaitləri hesabında təhsilə töhfə verməyə çalışıblar. Məsələn, Hacı Zeynalabdin Tağıyev qızlar məktəbi açmışdı. Bəzi gənclər məhz onun köməyi ilə xaricdə təhsil almışdı. Bundan başqa, Musa Nağıyev və digər milyonçular da belə təşəbbüslərə qoşulub. Mən təəssüf edirəm ki, bugünkü iş adamlarımız təhsilə töhfə vermirlər, öz dəstəklərini göstərmirlər. Onlar da gərək töhfə versinlər. İş adamları bəzi tələbələrin təhsil haqqını ödəməklə imkansız şəxslərə dəstək olmalıdırlar. Bununla ölkəmiz, cəmiyyətimiz üçün daha faydalı ola bilələr”.

■ **Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi isə bildirib ki, bu gün dövlətin qarşıya qoyduğu prioritet istiqamətlər var:**

“Əslində dövlət büdcəsindən bu sahəyə ayrılan vəsait elə də çox deyil. Çünki dövlətin qarşıya qoyduğu prioritet istiqamətlər var. Bunlar bütün vətəndaşlar üçün təhsilin əlçatanlığının təmin olunması, eyni zamanda işğaldan azad olunan ərazilərdə yeni məktəb tikintilərinin həyata keçirilməsi, həm də təmir-bərpa işlərinin də artırılmasıdır. Paralel olaraq tələbələrə kreditlərin verilməsi, dövlət sifarişi üzrə plan yerlərinin daha da çoxaldılmasıdır. Hazırda dövlət sifarişi üzrə təhsil alanların sayı ildən-ilə artır, 48 faiz dövlət sifarişi üzrə təhsil alan tələbə var.

Növbəti illərdə bu, 50-60 faizə çatdırılacaq. Eyni zamanda, inklüziv və fərdi təhsillə bağlı- bəzi vətəndaşlarımız müəyyən sağlamlıq imkanlarının məhdudluğuna görə evdə təhsilə cəlb olunurlar. Bütün bunlar müəyyən xərclər tələb edir. Nazirliyin tabeliyinə verilən AMEA və onun tabeliyində olan digər institutlar, bunlara da müəyyən maliyyənin ayrılması nəzərdə tutulur. Yəni bu işlərinin görülməsi üçün büdcə təbii ki, azlıq təşkil edir. Amma nəzərdə tutulan vəsaitə ciddi nəzarət olunarsa, o zaman müəyyən işlərin görülməsi mümkündür”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Yeni Laçın yolu dəhliz deyil

**Son günlərdə Ermənistan Azərbaycan sərhəddində, rus sülhməramlılarının nəzarəti altındakı ərazilərimizdə mövcud olan qanunsuz silahlı birləşmələr tərəfindən müxtəlif istiqamətlərdə atəşkəsin pozulması halları artıb. Eyni zamanda separatçı rejimin qalıqları fəallaşaraq yenidən Rusiyanın dəstəyi ilə milli maraqlarımızı təhdid edən bəyanatlar verirlər. "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Mahir Abbaszadə ilə bölgədəki son durumu dəyərləndirdik:**



**Mahir Abbaszadə,**
Milli Məclisin deputatı

## Müsahib

***- Ermənistanla sərhəddə və rus sülhməramlılarının nəzarəti altında qalan ərazilərimizdə fəaliyyət göstərən separatçı rejim tərəfindən təxribatların sayı artıb. Mövcud durum nədən xəbər verir?***

- Azərbaycan sərhədlərində təhlükəsiz və davamlı sülhün yaranması, delimitasiya, demarkasiya məsələlərinin həlli, tarixi Zəngəzur yolunun açılması, Prezidentin dediyi kimi, tarixdə müharibə səhifəsini bağlayıb, sülh səhifəsi açmaq, yenidən quruculuq siyasətini davam etdirərək bölgənin inkişafına nail olmaq üçün yenə də Ermənistanı sülh danışıqlarına dəvət edir. Bu, Azərbaycan dövlətinin apardığı əsas siyasətdir.

İrəvandan və Xankəndidə məskunlaşmış ermənilərin davranışlarından sülhə və təhlükəsizliyə təhdidlər var. Görürük ki, əslən erməni olan Rusiya vətəndaşı gəlib Qarabağda - Xankəndidə separatçı qüvvələrlə birləşərək mitinqlər keçirir, erməni əhalisinə yalançı vədlər verirlər.

9 noyabr bəyanatı Rusiyanın vasitəçiliyi ilə baş tutmuşdu və o sənəddə imzası var. Sülh təklifləri içərisində olan maddələr Azərbaycan xalqının, Azərbaycan Prezidentinin və dövlətimizin mövqeyini özündə ehtiva etmir. Prezident qeyd edir ki, "Qarabağ" adlı problem qalmayıb, Azərbaycanın ərazisində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Bu o deməkdir ki, biz artıq Qarabağ məsələsini həll etmişik, Qarabağda yaşayan ermənilər də Azərbaycan Respublikasının vətəndaşlarıdır. Cənab Prezident dəfələrlə qeyd edib ki, Azərbaycan vətəndaşı olan ermənilər üçün heç bir xüsusi statusdan söhbət gedə bilməz. Belə olan surətdə proses Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya məsələlərinin həllinə yönəlməlidir. Qarabağda yaşayan erməniləri Ermənistana keçidlə bağlı Laçın rayonu ərazisindən yolla təmin etmişiksə, o formada da Zəngəzur yolu açılmalı və Azərbaycan öz tarixi torpağı olan Naxçıvanla birbaşa quru sərhədlərini təmin etməlidir. Əksinə, biz Rusiya, Ermənistan tərəfindən belə neqativ hallara rast gəlirik. Bunun cavabını cənab Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı 8 noyabrda Şuşada Azərbaycan Qələbə bayramı keçirən zaman Ordunun qarşısında çıxışı zamanı verdiyi mesajlarda bir daha göstərdi. Bir daha elan etdi ki, əgər sülh danışıqları nəticə verməyəcəksə, Azərbaycanın uzatdığı sülh əlinə Ermənistan tərəfindən adekvat cavab olmadığı təqdirdə, Ermənistan tərəfi müharibə istəyəcəksə, nəticələri əvvəlcədən gözünün qabağına almalıdır. Ermənistan 30 il sülh istəmədi, 30 il müharibə istədi və bunun da nəticələrini gördü. Bu dəfə də Ermənistan sülhə doğru addım atmayacaqsa, sülhə təhdid yaradacaqsa, sülh prosesini uzatmağa çalışacaqsa, Azərbaycanın Dəmir Yumruğunu yenə görəcək. Azərbaycan Silahlı Qüvvələri öz ərazisini qorumaq, ədaləti və sülhü bərpa etmək gücünü özündə saxlayır.

***- Rusiya Prezidenti Vladimir Putinin noyabrın sonunda keçirilməsi nəzərədə tutulan Brüssel görüşü öncəsi KTMT-nin sammitində iştirak etmək üçün Ermənistana səfərinin "pərdəarxası"nda nə dayanır?***

- Soçidə Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıması ilə bağlı sənədə imza atıb. Biz sənədlərdə bunun ehtiva olunduğunu və Rusiya tərəfinin də hansı vasitəçilik missiyasını yerinə yetirdiyini görürük. Əgər Putin İrəvana səfər edirsə və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi Bakıya səfər edirsə, deməli, Rusiya Prezidenti bununla həm də İrəvana səfərinin mahiyyəti ilə bağlı məlumat vermək istəyir. Məsələ ondan ibarətdir ki, üzdə elə gedişlərə rast gəlirik ki, onun bir hissəsi Azərbaycan xalqının mənafelərini ifadə etsə də, arxada bəzi planların olduğunu görürük. Görürük ki, Rusiya tərəfi Azərbaycanın suveren ərazisində, Qarabağın mərkəzi şəhəri olan Xankəndidə "rus mərkəzləri"nin açılmasını təmin edir və guya ermənilərin rus dilini bilməsi ilə bağlı işlər aparırlar. Təbii ki, Azərbaycanın rus dilinin tədrisi ilə bağlı narahatlığı yoxdur. Narahtlıq doğuran odur ki, bu tədbirlərin təşkilində Azərbaycan tərəfinin cinayətkar kimi axtarışa verdiyi, özünü saxta "Artsax" deyilən rejimin rəhbəri elan etmiş Arutunyan iştirak edir.

Rusiya tərəfi bilməlidir ki, bu ərazilərdə sülhün və təhlükəsizliyin təmin edilməsi orada fəaliyyət göstərən rus sülhməramlılarının missiyasına daxildir. Sülhməramlıların mandatı ondan ibarətdir ki, bölgə silahsızlaşdırılsın, erməni silahlı qüvvələri ərazidən çıxarılsın, azərbaycanlılarla ermənilər arasında etimad yaradılsın.

Bu etimad da gələcəkdə orada qalıb, Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən ermənilərlə azərbaycanlılar arasında olmalıdır. Sülhməramlılar bu işlə məşğul olmalıdır. Təəssüflər olsun ki, biz başqa halları görürük. Azərbaycan öz ərazisində antiterror əməliyyatları aparmaq, düşmənin layiqli cavabını verməklə bağlı güc- qüvvəsini özündə saxlayır.

***- Üçtərəfli sazişin müddəlarına əsasən erməni silahlıları ərazidən çıxarılmırsa, Qarabağda sülhməramlıların və erməni silahlılarının özbaşınalığı artırsa, ermənilər Zəngəzur yolunun açılmasına maneədirsə, bu, Laçın dəhlizinin bağlanmasını, yeni müharibə, antiterror əməliyyatını nə dərəcədə zəruri edir?***

- Bu gün Qarabağdakı erməniləri Ermənistana aparacaq yol "dəhliz" deyil, yoldur. Beynəlxalq teminologiyada dəhlizin mənası başqadır, yolun başqa. Dəhlizdən həm dəmir yolu xətti, quru yol, işıq, qaz xətləri keçə bilər. Amma yoldan sadəcə maşınların gediş-gəlişi təmin olunur. Qarabğada yaşayan ermənilərin Ermənistana gediş-gəlişini asanlaşdırmaq üçün dəhliz vermişdik. İndi o, yeni yolla əvəzlənib. Bu yolun mühafizəsini 9 Noyabr sazişinə əsasən sülhməramlılar həyata keçirir. Bu yolun bağlanması, açılması, orada gömrük postunun qoyulması və yaxud sərhəd xidmətinin qurulması hüququnu Azərbaycan özündə saxlayır. Bu, beynəlxalq hüququn Azərbaycana verdiyi imkanlardır. Eyni zamanda, Laçın rayonunun ərazisindən Ermənistana gedən həmin yol Azərbaycan Respublikasının torpağıdır. Belə olan surətdə Konstitusiyaya uyğun olaraq Azərbaycan Dövləti istədiyi yerdə mühafizə xidməti qurub, sərhəd postu yarada bilər. İstənilən vaxtda həmin yolu bağlayıb pasport yoxlanışını təmin edə bilərik. Düşmən tərəfi, havadarları da bunu çox yaxşı bilir. Düşmən tərəfi anlamalıdır ki, bu gün Qarabağda -Xankəndidə yaşayan ermənilərlə birgə sülhə, təhlükəsizliyə böyük təhdidər yaradan addımları onların zərərinə işləyəcək. Azərbaycan Silahlı Qüvvələri o yolu istənilən vaxt bağlaya bilər və antiterror əməliyyatları keçirib həmin hərbi cinayətkarları həbs edə bilər. Bunu yadlarından çıxarmasınlar. Əgər düşmən tərəfi gələcəkdə beynəxalq hüququn verdiyi imkanlardan istifadə edib təhlükəsizlik və sülhün davamlı olmasına təhdid yaradacaqsa, Azərbaycan bu gücündən istifadə edəcək.

***- Laçın yolunun bağlanmasında gecikmirik?.. Ermənilər yenə də toparlanırlar, mühəndis istehkamları qururlar. Yenə də müharibə hazırlıqları gedir...***

- Otuzillik səbrimizdən sonra zaman gəldi, cənab Prezidentin rəhbərliyi ilə torpaqlarımızı geri aldıq. Həmin vaxt Prezidentin camaata belə müraciəti oldu: "Mən nəyi nə vaxt, necə edəcəyimi çox yaxşı bilirəm...". Mənə elə gəlir ki, bu məsələnin həlli ilə bağlı danışıqlar yolu hələ ki, tükənməyib. Hələ ki, beynəlxalq təşkilatların hamısında Ermənistanın revanşist addımları dəstəklənmir. Bu addımların qarşılığında Azərbaycan tərəfinin irəli sürdüyü sülh və təhlükəsizlik tələbi daha ucadan səslənir.

> “
>
> *Bu dəfə də Ermənistan sülhə doğru addım atmayacaqsa, sülhə təhdid yaradacaqsa, Azərbaycanın Dəmir Yumruğunu yenə görəcək*
>
> *Üzdə elə gedişlərə rast gəlirik ki, onun bir hissəsi Azərbaycan xalqının mənafelərini ifadə etsə də, arxada bəzi planların olduğunu görürük*
>
> *Laçın yolunun bağlanması, açılması, orada gömrük postunun qoyulması və yaxud sərhəd xidmətinin qurulması hüququnu Azərbaycan özündə saxlayır*

Azərbaycan tərəfi qalibdir, istədiyi vaxt əməliyyatları həyata keçirə bilər, amma cənab Prezident sülhsevərliyini, insanpərvərliyini və regionun lideri olduğunu ortaya qoyaraq təmkin göstərir. Bu, öz nəticəsini verəcək. Verməzsə, Azərbaycan Dövlətinin Ordusu öz gücünü özündə saxlayıb.

***- Paşinyan sülh masasına "çərçivə sazişi" təklif edib. Bunun arxasında hansı niyyətlər var?***

- Ermənistan-Azərbaycan danışıqlarının hansı səviyyədə və hansı maddələr üzərində aparılması ilə bağlı cənab Prezidentin irəli sürdüyü təkliflər var.

Bu təkliflər Azərbaycan xalqının mənafelərini müdafiə edir. Ərazilərdə sülhün və təhlükəsizliyin təminatı ancaq bu maddələr üzərində mümkündür. Bu maddələr özündə ehtiva edir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşır, müharibə erası bitir və sülh prosesi başlayır. Adının "çərçivə sazişi", yaxud başqa nə olmasından asılı olmayaraq bütün danışıqlar Azərbaycan tərəfinin irəli sürdüyü həmin maddələr üzərində olmalıdır. Bunu cənab Prezident dəfələrlə deyib.

***- İranın, ABŞ-ın, Rusiyanın, Fransanın Qarabağ məsələsində sərgilədiyi mövqe və Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi qətnamə fonunda Azərbaycan həqiqətlərinə beynəlxalq münasibət hansı standartlarda, çərçivədə görünür?***

- Senatın Azərbaycanla bağlı qəbul etdiyi və nəzərdə tutduğu sanksiyaların heç bir əhəmiyyəti yoxdur. Senatın qətnamələri tövsiyə xarakterlidir və bunun hökumət tərəfindən təsdiqlənib-təsdiqlənməyəcəyi də başqa məsələdir. Fransa Parlamentinin Azərbaycanla bağlı mövqeyi gözlənilən idi. 2020-ci ildə biz torpaqları işğaldan azad edən zaman da Senatın belə bir qətnaməsi oldu. Senat bir az da qabağa gedərək, "Dağlıq Qarabağ" deyib, "artsax" dövlətinin tanınması ilə bağlı tövsiyyələr verirdi.

Hamı yaxşı bilir ki, Fransada erməni lobbisi çox güclüdür. Parlament, Prezident Makron da erməni lobbisinin təsiri altındadır. Makronun bütün çıxışları məhz Fransada yaşayan erməni lobbisinin səsini almağa yönəlib.

Senatda irəli sürülən təkliflərə baxsaq, qəbul edilmiş qərar reallıqları əks etdirmir. Bu qərarı qəbul edən parlamentariləri sanki Qarabağın harada olduğundan, Ermənistan-Azərbaycan sərhəddində nələrin baş verdiyindən xəbərsizdirlər.

Məsələn, maddələrin birində qeyd olunur ki, Azərbaycan Ordusu Ermənistan ərazilərindən və Laçın dəhlizindən çəkilməlidir. Onlar anlamırlar ki, "Laçın dəhlizi" məsələsi qurtarıb, indi sadəcə Laçından keçən yol var və yolun mühafizəsini rus sülhməramlıları aparırlar. Rus sülhməramlılarının da orada olması 9 noyabrda ermənilərin kapitulyasiya aktına imza atması ilə mümkün olub. Bu necə Senatdır ki, Ermənistan rəhbərliyinin atdığı addımlardan xəbəri yoxdur. Belə çıxır ki, Senat erməni lobbisinin təsiri altındadır. Yaxud, Senat qətnamədə qeyd edib ki, "Azərbaycan bütün hərbi əsirləri qaytarılmalıdır". Azərbaycanda erməni hərbi əsiri yoxdur, terrorçular var. Onlar müharibədən sonra Azərbaycan ərazisində diversiya aparmaq istəyərkən təhlükəsizlik və silahlı qüvvələr tərəfindən tutulub, qanunlarımıza uyğun olaraq məhkəmədə cinayət məsuliyyətinə cəlb ediliblər. Əksinə, Ermənistan 4 mindən artıq hərbi əsrimizin taleyi haqqında bu günə qədər də məlumat vermir. Biz bu yaxınlarda Xocavənd rayonunun Edilli kəndində, Füzuli rayonunda tapılan kütləvi məzarlıqları gördük. O məzarlıqlarda 75-dən artıq azərbaycanlı əsirin əlləri, qolları bağlı şəkildə torpağa basdırılıdığı ortaya çıxdı.

Yaxud, Senat tövsiyə edir ki, "Fransa hökuməti Dağlıq Qarabağda "humanitar büro" açmalıdır.

Birincisi, Azərbaycanda "Dağlıq Qarabağ" ərazi vahidi yoxdur. İkincisi, siz necə Azərbaycanın hüququ ərazisi olan Qarabağda büro aça bilərsiniz? Azərbaycan istənilən büronu ləğv edib, üzvlərini də məhv edə bilər. Bu bizim suveren hüququmuzdur.

Deyirlər ki, "Dağlıq Qarabağ respublikası -Artsax tanınmalıdır". Bir daha bəyan edirik ki, "Dağlıq Qrabağ" adlı respublika yoxdur. "Dağlıq Qarabağ" adlı problem də yoxdur.

Görünən odur ki, Fransa Senatının qəbul etdiyi qərar nəinki Azərbaycanın mənafeyinə uyğun deyil, heç bölgənin reallıqlarını özündə əks etdirmir.

***- İşğaldan azad olunmuş ərazilərin bərpası, quruculuq işləri necə davam edir?***

- Azərbaycan torpaqlarını işğaldan azad edib vətəndaşları geri qaytararkən bizim üçün ən böyük təhlükə mina təhlükəsidir. Müharibə qurtarandan sonra 300-ə yaxın insan minaların qurbanı olub. Bu insanların böyük əksəriyyəti həyatlarını, bəziləri sağlamlıqlarını itirblər.

Cənab Prezident də Şuşada qeyd edirdi ki, minalardan təmizlənmək üçün Azərbaycana milyardlarla dollar, təxminn 30 il də vaxt lazımdır. Qeyd etmək lazımdır ki, Azərbaycan işğaldan sonra bərpa-quruculuq işlərini tək öz vəsaitləri hesabına aparır. Məhz minaların təmizlənməsi prosesini də öz vəsaitləri gücü hesabına həyata keçirdir. Minalardan təmizləmə prosesi gedir, amma təhlükə də qalır.

***✍ Tahirə Qafarlı***

## XƏBƏRİNİZ OLSUN...



■ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriya lideri Bəşər Əsədlə görüşmək ehtimalının olduğunu bildirib. Bu barədə o Türkiyə Böyük Millət Məclisində partiyasının qrup toplantısından sonra jurnalistlərin suallarına cavab olaraq deyib. Ərdoğan, "Əsədlə görüş ola bilər, siyasətdə küskünlük olmamalıdır. Sonda uyğun şərtlər daxilində addımlar atacağıq", - deyə əlavə edib.

---

■ Bakıda müəllim zəhərlənmədən dünyasını dəyişib. Lent.az xəbər verir ki, Məktəb Lisey Kompleksinin riyaziyyat müəllimi, 40 yaşlı Şəfəq Əliyeva pomidor turşusundan zəhərlənib. Səhhəti pisləşən müəllim xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, bir neçə gün sonra Şəfəq Əliyeva dünyasını dəyişib. Qeyd edək ki, mərhum ailəli olub, iki övladı var.

---

■ Ukraynanın paytaxtı Kiyev şəhərinin meri Vitali Kliçko şəhərdəki vəziyyətlə əlaqədar olaraq əhalinin qismən təxliyəsinə icazə verib. Kliçko bu barədə "BİLD"ə müsahibəsində deyib. O bildirib ki, sakinlər şəhərdə işıqların kəsilməsi ilə əlaqədar hadisələrin ən pis ssenarisinə hazır olmalıdır.

---



■ UEFA "Qarabağ" klubuna 504 000 avro (885.57 manat) məbləğində ödəniş edib. "Köhlən atlar" bu məbləği UEFA Avropa Liqasının qrup mərhələsində heç-heçə başa çatmış oyunların nəticəsinə görə və turnirdə iştirakla əlaqədar bonus olaraq alıb. Maliyyə vəsaiti milli assosiasiyanın vasitəçiliyi ilə "Qarabağ"ın hesabına köçürülüb.

---

■ Böyük Britaniyanın Ali Məhkəməsi Şotlandiya hökumətinin Böyük Britaniyadan ayrılıb-ayrılmayacağına dair referendumu birtərəfli qaydada keçirə bilməyəcəyinə dair qərar verib.

Ali Məhkəmə Şotlandiya Milli Partiyasının (SNP) gələn ilin oktyabrında səsvermə keçirməklə bağlı müraciətini yekdilliklə rədd edib və səbəb olaraq bildirib ki, Britaniya parlamentinin bu qərara təsdiq verməyib.

---

■ Trans-Adriatik boru kəmərinin (TAP) qısamüddətli bazara təklif olunan gücü maksimum artırılıb. Bunu TAP-ın Yunanıstandakı rəsmi nümayəndəsi İoannis Maris Afinada Cənub-Şəri Avropa ölkələri 1-ci enerji dialoqu zamanı deyib. "Hazırda TAP-ın uzunmüddətli buraxılış gücünü artırılması üçün bazar sınaqları aparılır", - deyə o bildirib.

---



■ Noyabr ayının 21-də saat 05:50-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin Xaçmaz rayonunun Samurçay kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 9 (doqquz) nəfər Pakistan İslam Respublikası vətəndaşları saxlanılıb.

---

■ Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi dəyişib. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan təşkilata üzv dövlətlərin İrəvanda keçirilən sammitində deyib. O bildirib ki, Stanislav Zas KTMT-nin baş katibi kimi üç illik fəaliyyətini başa vurub: "Bundan sonra baş katibin səlahiyyətlərini Qazaxıstan nümayəndəsi İmanqali Tasmaqambetov icra edəcək".

# İranda iki güclü klan arasında mübarizə gedir

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün budəfəki söhbətimizdə son dövrdə Azərbaycan xalqının emosiyalarını coşduran olay və proseslər, onların gerçək mahiyyəti və perspektivləri, İrandakı qanlı iğtişaşların gözlənilən nəticələri, habelə Rusiyanın Qarabağdakı "sülhməramlı"larının separatçı liderləri və qanunsuz silahlı erməni birləşmələrini himayə etməsinin hansı planlara xidmət etməsindən bəhs etdik.***

## Müsahib



**Ərəstun Oruclu,**
Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

***- Son aylar Azərbaycan cəmiyyətinin diqqəti və emosiyaları əsasən 3 istiqamətə yönəldilib. Birincisi, İranda, o cümlədən Güney Azərbaycanda baş verən iğtişaşlar fonunda artıq tezliklə Təbrizin, Ərdəbilin və s. azad olacağı, quzeyli-güneyli bütöv Azərbaycan yaranacağı xəyalıdır. İkinci məsələ türk ölkələrinin yaxın dövrdə Turan birliyi quracağı illüziyasıdır. Üçüncü mövzu isə tezliklə nəinki, Zəngəzur, Göyçə, hətta İrəvanda da Azərbaycan bayrağının dalğalanacağı xülyasıdır. Bu 3 məsələ, 3 arzu gerçək geo-siyasi proseslər prizmasından necə görünür?***

- Bu məsələlərin hamısı; istər Güney Azərbaycan, Güneyli-Qizeyli Azərbaycanın birləşməsi, Turan və yaxud elə, nə bilim, "İrəvan respublikası", "Zəngəzur-Göyçə respublikası" - bütün bunlar real siyasətdən, xüsusən də geo-siyasətdən olduqca uzaq duran məsələlərdir. Və əgər biz onların hər üçünə geo-siyasi proseslər prizmasından baxsaq, deyərdim ki, hətta bizim - Azərbaycan üçün təhlükəli məsələlərdir...

Nəzərə almalıyıq ki, İrandakı təbii səbəblərdən doğan iğtişaşlardan yararlanmağa çalışan məkrli qüvvələrin əsas hədəfi "Böyük Orta Doğu" adlanan projedə iştirak etməkdir. Amma onların bu bölgəyə çıxışı olmadığından həmin çıxışı Azərbaycan, Ermənistan və İrandan qoparmağa çalışdıqları bir hissə, sonrakı mərhələdə isə Suriya və İraq vasitəsilə reallaşdırmağa çalışırlar. İcazənizlə bir qədər də dərinləşdirim. Söhbət Cənubi Azərbaycanın Türkiyə ilə həmsərhəd bir zolağını, Naxçıvanı, Ermənistanın Zəngəzur bölgəsini və bütövlükdə Azərbaycan Respublikasını, sonrada isə qeyd etdiyim kimi, şimali Suriya və şimali İraqı əhatə edən böyük bir ərazidə destablizasiya zonası, başqa sözlə, "boz" zona yaratmaqdan gedir. Onun adı müxtəlif cür ola bilər. Yüksək ehtimalla deyək ki, bu, "Kürdüstan respublikası" ola bilər, təbii ki, tanınmayan... Amma eyni zamanda bu zolağın bir kommunikasiya rolu da oynaması mümkündür. Necə ki, vaxtilə - biz bunu çox yaxşı bilirik, -Azərbaycanın işğal altında qalan bölgələri belə bir rol oynayırdı. O zaman Rusiyadan, onun Ermənistandakı 102-ci bazası vasitəsilə Qarabağa, Qarabağdan isə İrana silah-sursat, geriyə isə narkotik maddələr daşınırdı. Eyni zamanda orada qeyri-leqal yanacaq və digər malların alveri də həyata keçirilirdi. İndi isə bu daha böyük miqyasda planlaşdırılmış bir layihədir... Amma artıq, gördüyümüz kimi, bu layihənin də qarşısını almağa başlayıblar. Bu haqda hələlik bu qədər...

***- Proses konkret Azərbaycan üçün hansı təhlükələri daşıyır?***

- Deyilən proseslərin Azərbaycan üçün daşıdığı təhlükə isə təsəvvür etdiyimizdən daha böyükdür... Birincisi bu, Şimali Azərbaycanın, yəni Azərbaycan Respublikasının suverenliyinin itirilməsi və ya məhdudlaşdırılması deməkdir. İkincisi, bu, Cənubi Azərbaycanda, yəni İranda "Qərbi Azərbaycan ostanı" adlandırılan və Türkiyə ilə həmsərhəd olan ərazidəki soydaşlarımızın bir hissəsinə qarşı etnik təmizləmə ilə nəticələnə bilər. Üçüncüsü, düşmən qüvvələrin, nəhayət, Türkiyənin şərq və cənub sərhədlərinə gəlib çıxmasına səbəb ola bilər. Və bununla da Türkiyə-Azərbaycan əlaqələrinin tam kəsilməsi mümkündür. Çünki olay və proseslərin düşmənlərimizin istədiyi kimi getməsi halında Azərbaycan Naxçıvan üzərindəki onsuz da məhdud suverenliyini xeyli dərəcədə itirə bilər. Bu isə Azərbaycan və Türkiyə üçün, ümumiyyətlə, türk dünyası üçün böyük bir faciə baş verməsi demək olar. Sadalananların geosiyasi perspektivinə gəldikdə, hesab edirəm ki, artıq hər şey aydındır. İran ölkədə baş verən iğtişaşları və situasiyanı tədricən nəzarətə götürəcək. Bunun əlamətləri artıq görünməkdədir. Eyni zamanda Tehran hakimiyyəti şimali İraqdakı kürd silahlı birləşmələrini tərksilah edəcək... Yaxud bu işi təzyiq edərək İraq hökumətinə gördürəcək. Türkiyə isə artıq Suriyada əməliyyatlara başlayıb. Geosiyasi kontekstdən bu, belə görünür. Dünya mediasını diqqətlıə izlədikdə biz bir şeyi aydın görürük ki, istər ABŞ, istər Avropa KİV-də, istər Qərb analitiklərinin açıqlama və təhlillərində, istərsə də siyasətçilərin bəyanatlarında İranla bağlı hər hansı bir etnik, milli məsələ və ya həmin ölkənin parçalanması məsələsi müzakirə olunmur. Söhbət yalnız İranda rejimin dəyişməsindən, onun yumşalmasından və demokratik bir quruluşun təsbit olunmasından gedir. Dediyim kimi, real geo-siyasi baxış bucağından görünən bunlardır.

> *"Bu halda Rusiya Qarabağdakı silahlı erməni birləşmələrindən destablizasiya faktoru kimi istifadə edəcək...*

***- Sizcə, mövcud reallıqda Azərbaycan dövlətinin əlində Qarabağdakı baş separatçı Araik Arutyunyan, V. Balasanyan, B.Saakyan və s. ilə yanaşı, Putinin milyarder "desantı" sayılan Ruben Vardanyanın da həbsi və Xankəndindəki separatçı-terrorçu "mədə yarası"nın kəsilib atılması üçün yetərli əsaslar və hüquqi mexanizmlər varmı?***

- Bu gün Azərbaycan hakimiyyətinin əlində, əlbəttə, həmin Arayik Arutyunyanı, V. Balasanyanı, B.Saakyanı və bunlarla yanaşı, Putinin "desantı" sayılan həmin Ruben Vardanyanı da mühakimə etmək üçün əsaslar var, amma eyni zamanda da yoxdur. Nə qədər paradoksal görünsə də... Birincisi, ona görə ki, hüquqi baxımdan, bəli, onlar Azərbaycanın ərazi bütövlüyünü pozmuş, ərazimizdə qanunsuz silahlı birləşmələr yaratmış, Azərbaycan dövlətinin ərazi bütövlüyünə təhdid yaratmış şəxslər kimi ölkə qanunvericiliyinə görə cinayət məsuliyyəti daşıyırlar. Amma bu separatçı liderlərin məsuliyyətə cəlb olunması üçün hüquqi mexanizmlərin özü belə, yoxdur. Çox sadə bir səbəbdən... Həmin şəxslər hal-hazırda Azərbaycan ərazisində, onun Qarabağ bölgəsinin dağlıq hissəsində qanunsuz yerləşmiş dırnaqarası Rusiya "sülhməramlı"larının nəzarəti və himayəsi altındadırlar. Azərbaycan dövlətinin isə hələlik bəhs edilən ərazilərə təsir imkanları yoxdur. Odur ki, sözügedən erməni separatçıları və digərlərinin hər hansı bir şəkildə məsuliyyətə cəlb olunması hələlik, belə deyək, arzuolunan bir haldır...

***- Əgər Azərbaycan ərazisininbir hissəsini nəzarətdə saxlayan Rusiya hərbi kontingentinin Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrini silahla təchiz etməsi faktları doğrudursa, deməli, Kreml nə vaxtsa həmin separatçı "müdafiə ordusu"nun əli ilə torpaqlarımızda növbəti lokal və ya genişmiqyaslı hərbi qarşıdurmanı körükləməyi planlaşdırır. Sizcə, bu, hansı məqamda baş verə bilər?***

- Bəli, Rusiya "sülhməramlıları" adlanan həmin o kontingentin qanunsuz erməni silahlı dəstələrini silahla təchiz etməsi, onlara təlim keçməsi şəksizdir. Bu haqda onlarla fakt var. Rusiya mənbələrinin yaydığı rəsmi və qeyri-rəsmi xəbər və məlumatlarda bəhs edilən Azərbaycan ərazisinin Rusiya Müdafiə Nazirliyi tərəfindən heç bir rəsmi qurum olmayan və heç kəs tərəfindən tanınmayan qondarma "dağlıq Qarabağ respublikası" kimi təqdim olunması Rusiyanın Azərbaycanın ərazi bütövlüyünü tanımamasını, ona həqarət etməsini, onu təhdid altına qoymasını sübut edir. Moskva eyni zamanda bununla situasiyaya nəzarət edən tərəf olduğunu nümayiş etdirir. Eyni zamanda qanunsuz erməni birləşmələrinin qeyd etdiyimiz silahlandırılması məsələsi... Və eyni zamanda silahlandırmanı da kənara qoyaq, yada salaq ki, 10 noyabr üçtərəfli bəyanatına görə, Rusiyanın "sülhməramlı"larının əsas vəzifələrindən biri erməni silahlı birləşmələrinin tərksilah olunmasıydı ki, bunu etmədilər. Elə bunu etməmək erməni separatçılarını silahlandırmaq kimi bir şeydir...

Hesab edirəm ki, Kremlin Qarabağdakı silahlı dəstələri saxlamasının, onları silahlandırmasının, oradakı separatçıların başına Ruben Vardanyanı bir lider kimi gətirməsinin hədəfi isə Şimal-Cənub dəhlizinin Azərbaycan və həmçinin İran tərəfindən açılmayacağı halda həmin o silahlı dəstələrdən destablizasiya faktoru kimi istifadə etmək və bundan sonra bölgədə növbəti müharibəni qızışdırmaq planıdır. Mən bu planı belə görürəm. Və həmin planın tərkib hissəsindən biri də bu gün KTMT-nin İrəvanda keçirilən toplantısı və Putinin birbaşa özünün o sammitdə iştirakı, bu tədbirin hədəfində, məqsədində Ermənistana hərbi dəstəyin verilməsinin olmasıdır. Bunlar hamısı göstərir ki, sadalananlar vahid bir planın tərkib hissəsidir və plan da dediyim kimi, Azərbaycanı zorla həmin Şimal-Cənub dəhlizinin açılmasına razılıq verməyə məcbur etməkdir. Və şübhəsiz ki, həmin planda da Qarabağdakı qanunsuz hərbi birləşmələrin iştirakı nəzərdə tutuludbur. Bu, birmənalıdır..

***- Necə hesab edirsiniz, İrandakı ilk baxışdan kortəbii görünən qanlı iğtişaşlar xarici güclərlə də bağlı olan hakimiyyətdaxili qruplaşmalar tərəfindən yönləndirilir, yoxsa, bütün bunlar, doğrudan da, Tehran rejiminin zülmündən cana doymuş xalq kütlələrinin kortəbii etirazının nəticələridir?***

- İrandakı iğtişaşların birinci səbəbi, buna təkan verən birinci amil insanların artıq mövcud şəraitdən bezməsi, onların azadlığa, daha geniş hüquqlara malik olmağa can atmalarıdır. Bu, şübhəsizdir. Amma eyni zamanda bu, İranda iki güclü klan arasında gedən mübarizənin də təzahürüdür. Bunun da təsiri var. Onlardan biri Rəfsancani, digəri isə Xamneyi klanıdır. Bu iki klan arasında böyük bir savaş gedir. İranda bu savaşlar daim saray çəkişmələri səviyyəsində olub. Bu, yüzillərdən gələn bir ənənədir. Həmin çəkişmə siyasi konyuktura şəklində küçələrə yalnız o zaman çıxır ki, artıq daxildə məsələlər həll olunub, yəni bir klan digərinə qalib gəlib. Hazırda görünən budur ki, hələki güclər bərabərdir və həmin səbəbdən də bu gün müxalif olan Rəfsəncani klanı hələki prosesləri öz nəzarəti altına almağa tələsmir. Əlbəttə ki, insanların mübarizə əzmi bir tərəfdən güclənirsə, digər tərəfdən əzilərək zəifləyir, mübarizə resursları hədərə xərclənir. Və ən təəccüblüsü odur ki, artıq iki aydan çoxdur davam edən proseslərdə hər hansı bir idarəçilik, təşkilatlanma görünmür. Bu da dediyim səbəbdəndir. Çünki əsl təşkilatlandırıcı amil pərdənin arxasındadır. Və bu, çox güman ki, Rəfsəncani klanıdır...

✍ **Sultan Laçın**

## Təhlil

***Noyabrın 25-i heç vaxt hafizəmizdən silinməyəcək gündür - Azərbaycanın ərazisinə görə ən iri rayonu olan Kəlbəcər Ermənistan silahlı qüvvələrinin işğalından azad edilib. Tam 27 il mənfur düşmənin tapdağı altında inləyən bu əsrarəngiz təbiətə malik Vətən torpağı, nəhayət,, əsl sahiblərinə qayıtdı. Özü də bircə güllə atılmadan, qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi dövründə həyata keçirdiyi uğurlu hərbi əməliyyatların sonu olaraq Ermənistan təslim olmaq haqda sənədi imzaladı. Həmin sənədin müddəalarına əsasən isə Ermənistan səssiz-sədasız öz silahlı birləşmələrini Kəlbəcər rayonunun ərazisindən çıxardı. Xatırlatma verək ki, sazişə əsasən Ermənistan noyabrın 15-də Kəlbəcər rayonunu Azərbaycana təhvil verməli olduğu halda, bunu müxtəlif bəhanələrlə vaxtında etmədi. Ermənistan vaxtın azlığını və relyefin çətinliyini əsas göstərərək noyabrın 25-dək vaxt istədi.***

# İşğaldan azad Kəlbəcər...

Azərbaycan tərəfi Rusiya tərəfindən çatdırılan bu xahişi qəbul etdi. Beləliklə, Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verildi. Azərbaycan Ordusu 25 noyabrın ilk dəqiqəsindən Kəlbəcərə daxil oldu və həmin gündən, həmin saatdanetibarən rayonun Ermənistan tərəfindən işğalı başa çatdı - Kəlbəcər azad edildi.

Artıq ağrılı-acılı günlər arxada qalıb. Torpaqlarımız işğaldan azad olunub və hazırda həmin ərazilər mina və digər partlamamış sürsatlardan təmizlənir, çox sürətli bərpa-quruculuq işləri görülür ki, az qala, 30 ildir Vətən həsrəti ilə yaşayan əhali öz yurdlarına qayıda bilsinlər. O cümlədən Kəlbəcərdə də sürətli tikinti işləri gedir. Burada ərazilər minalardan təmizlənir, yollar, elektrik xətləri çəkilir, ölkənin bəlkə də ən uzun tunelləri tikilir, qayıdacaq insanların yaşaması üçün kəndlər salınır və sair. Məlumat üçün qeyd edək ki, ümumi sahəsi 3054 kvadrat-kilometr olan Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu. İşğal nəticəsində rayonun ovaxtkı statistikasına əsasən, 53 min nəfərdən çox əhalisi öz dədə-baba yurdundan didərgin düşmüşdü. İşğal zamanı ermənilər 511 dinc sakini öldürmüş, 321 nəfər əsir götürmüşdü və ya bir çoxları hələ də itkin sayılır. 1930-cu il avqustun 8-də inzibati rayon statusu almış Kəlbəcər qərbdə Ermənistan, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgəsinə daxildir. Kəlbəcər rayonu Bakıdan, təxminən, 450 kilometr qərbdə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir. İşğal nəticəsində Kəlbəcər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. Kəlbəcərin işğalı nəticəsində rayon mərkəzi, 145 kənd və qəsəbə, bu ərazilərdəki onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, dünyaşöhrətli "İstisu" sanatoriyası və digər mühüm obyektlər, o cümlədən 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100-lərlə maşın, texnika və sair talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. Ümumiyyətlə, 27 il öncə Kəlbəcər kimi geniş və faydalı ehtiyyatlarla zəngin ərazisinə, həm də geocoğrafi mövqeyinə görə strateji əhəmiyyətli bir rayonun işğalı Azərbaycan üçün ikiqat məğlubiyyət idi. Ermənistan bu müvəqqəti uğuru ilə həm öz ərazisini çox geniş məsafədə istənilən hərbi toqquşma ehtimalından azad etdi, həm Dağlıq Qarabağla öz ərazisini tam birləşdirdi, həm də yerüstü və yeraltı zəngin ehtiyatlarını istismar edərək onsuz da səfil günündə olan vətəndaşlarına əlavə gəlir yeri tapmış oldu.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin Rusiya ordusuna və Avropadakı Fransa, elə ABŞ-ın özünə arxalanan ermənilər BMT-nin çağırışlarına qəti məhəl qoymadılar. Bəli, artıq Kəlbəcər azaddır və Azərbaycanın ayrılmaz bir parçası olaraq öz əlimizdədir. Rayonun azad olunması sadəcə orada geridönüşü təmin etmək məqsədilə aaprılan sürətli tikinti-quruculuq içşləri ilə yekunlaşmır, həm də bu torpaqların azad edilməsi üçün canından keçənlər, sağlamlığını itirənlərin əməyi dəyərləndirilir. Məsələn, 2020-ci il noyabrın 26-da "Kəlbəcərin azad olunmasına görə" medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda gedən əməliyyatlarda iştirak edən vətən övladları - 9424 hərbi qulluqçu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Yuxarıda da qeyd etdiyimiz kimi, Kəlbəcər rayonunun ərazisi faydalı qazıntılarla, o cümlədən qızıl, gümüş, mis, xrom civə, tellur, selen və sair kimi yataqlarla zəngindir. Burada sənaye əhəmiyyətli Söyüdlü, Ağduzdağ və Qızılbulaq qızıl, Şorbulaq və Ağyataq civə və Mehmana polimetal yataqları xüsusilə əhəmiyyətlidir. Rayon ərazisində böyük ehtiyatlara malik əlvan və üzlük daşlar, inşaat materialları yataqları mövcuddur. İşğal altında qalmış Kəlbəcər rayonunun təbii sərvətləri - sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları uzun illər Ermənistan tərəfindən talan edilib. Amma bu gün bu sərvətlər Azərbaycanın öz sərəncamındadır və düşünürük ki, ən qısa vaxtda həmin yataqların istismarı Azərbaycan xalqının güzəranına öz müsbət təsirini göstərəcək.

Bir faktı nəzərdən qaçırmayaq ki, Kəlbəcər Azərbaycan iqtisadiyyatına çox böyük gəlirlər vermək imkanlarına malikdir və ümumiyyətlə, sovet dövründə də ölkəmizin ən rentabelli rayonlarından olub. Kəlbəcərin azad olunmasından cəmi 2 il ötsə də, artıq rayonda quruculuq işləri, infrastruktrun qurulması istiqamətində çox ciddi



layihələr gerçkləşdirilib. Əhalinin təhlükəsiz və rahat qayıdışını təmin eləmək məqsədilə burada yüksək keyfiyyətli yollar salınmaqla yanaşı, həm də dağların altından tunellər tikilir. O cümlədən, Murov silsiləsinin altında keçərək əsas yolu Laçın rayonuna birləşdirəcək 12 kilometrə yaxın uzunluğunda tunelin əhəmiyyəti çox böyük olacaq. Bundan əlavə, əhalinin ehtiyaclarını ödəməyə, iqtisadiyyatın inkişafını stimullaşdırmağa kömək edəcək enerji təsisləri yaradılır. Bölgədə ötən il beş Su Elektrik Stansiyası tikilib istifadəyə verilib, bi il isə daha dördünün tikintisi ilin sonunadək başa çatdırılacaq. Özünəməxsus füsunkar təbiətə malik Kəlbəcər şəhərinin baş planı hazırlanıb və orada bütün tikinti-quruculuq işləri məhz həmin plan üzrə aparılır. Artıq ilin sonunadək müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcək. Hərbi hissələr, ictimai obyektlər artıq fəaliyyət göstərir. Kəlbəcərdə aşıq mərkəzi və lazım olan digər mədəniyyət obyektləri də tikiləcək.

Laçın rayonu ərazisində hazırda tikintisi gedən yeni hava limanının basilica məqsədlərindən biri də məhz bölgənin, o cümlədən Kəlbəcər rayonunun social-iqtisadi inkişafını sürətləndirməkdir. Yəni digər işğaldan azad olunan rayonlarımız kimi, Kəlbəcərdə də yenidənqurma layihələri uzunmüddətli gələcəyə hesablanmış şəkildə icra olunmaqdadır.

Qısası, 27 illik həsrətə dözmüş kəlbəcərlilərin öz torpaqlarına dönməsinə çox az qalıb. 25 noyabr tarixi Kəlbəcər əhlinə azadlıq müjdəsini verdiyi kimi, yaxın vaxtlarda geridönüşün başlayacağını bildirən daha bir tarixi günlə sevinəcəiklərinə əminik. Bir daha gözləriniz aydın, Kəlbəcər sakinləri!

✍ **Vüsal Tağıbəyli**



**■ Ağdam rayonu ərazisində naməlum insan sümükləri aşkar edilib. "Həftə içi" DİN-in Mətbuat xidmətinə istinadən xəbər verir ki, noyabrın 22-də daxil olmuş məlumat əsasında polis, prokurorluq və təhlükəsizlik xidməti əməkdaşlarının iştirakı ilə işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində aparılan qazıntılar zamanı oradan insan sümükləri aşkar olunub.**

Onların 1992-ci ildə öldürülərək basdırılması ehtimal olunur. Sümüklərin kimə aid olması müəyyənləşdirilməsi üçün məhkəmə-tibbi ekspertizasına təhvil verilib.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə artıq bu hal bir neçə dəfədir ki, təkrarlanır.



**■ Avropa Parlamenti Rusiyanı Ukraynaya qarşı işğala başladığı müddətdən bəri "qəddar və qeyri-insani" hərəkətlərə görə "terrora sponsorluq edən dövlət" elan edib. Qətnamə Strasburqda keçirilən aylıq plenar iclasda səsvermədə qəbul olunub.**

Səsvermədə 494 parlamentari bu qətnamənin lehinə, 58 əleyhinə səs verib. 44 parlamentari bitərəf qalıb. "Rusiya Federasiyası tərəfindən Ukraynanın mülki əhalisinə qarşı qəsdən həyata keçirilən hücumlar və vəhşiliklər, mülki infrastrukturun dağıdılması və insan hüquqlarının və beynəlxalq humanitar hüququn digər ciddi pozuntuları Ukrayna əhalisinə qarşı terror aktıdır və müharibə cinayətləridir" qətnamədə deyilir.



**■ Moskva Ankara və Dəməşqdən bir-birinə doğru addım atmağa hazır olduqları barədə siqnallar alır. Bunu Rusiya Prezidentinin Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyev Suriya üzrə Astana formatında keçirilən 19-cu beynəlxalq görüşün yekunlarına dair mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, Rusiya Suriya-Türkiyə yaxınlaşmasına ümid edir. "Ümid edirik ki, tədricən müəyyən Suriya-Türkiyə yaxınlaşmasının şahidi olacağıq, bu sadəcə zəruridir, çünki bunlar dostluq şəraitində yaşamalı olan iki qonşu dövlətdir. Düşünürəm ki, Türkiyə və Suriya tərəflərindən gələn bir-birinə doğru addım atmağa hazır olduqları barədə siqnallar dinc əhalinin ölümü ilə bağlı belə faciəvi hadisələrin qarşısını alacaq düzgün istiqamətdə atılan addımlardır", - deyə rusiyalı diplomat vurğulayıb.




**■ Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanın tədiyə balansının cari əməliyyatlar hesabının (CƏB) profisitinin ÜDM-də payının 31,7% (2021-ci ildə 15,2%) təşkil edəcəyini proqnozlaşdırıb.**

Bu barədə bankın "Transition Report 2022-23" hesabatında bildirilib. AYİB-in proqnozlarına görə, bu il CƏB-in kəskin artmasına neft və qazın qiymətlərinin artması yüksək təsir göstərib. Bundan əlavə, AYİB dövlət büdcəsinin ÜDM-də çəkisini 17,1% proqnozlaşdırıb. 2021-ci il üzrə isə bu göstərici 4,1% təşkil etmişdi. Hesabata əsasən, birbaşa xarici investisiyaların ÜDM-də payı bu il 3.5% proqnozlaşdırılıb.



**■ Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçirilib.**

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin rəhbəri general-mayor Fatih Akpınar və Rusiya kontingentinin rəhbəri kontr-admiral Oleq Semyonov noyabrın 23-də qeyd olunan ərazidə olublar.



**■ Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) "Böyük Qayıdışa dair I Dövlət Proqramı" ilə bağlı komissiya yaradılıb. Bu barədə akademiyanın Rəyasət Heyəti qərar qəbul edib.**

Qərarə əsasən Böyük Qayıdışa dair I Dövlət Proqramında AMEA-nın üzərinə düşən vəzifələrdən irəli gələrək Tədbirlər planının hazırlanması məqsədilə akademik İsa Həbibbəylinin sədrliyi ilə komissiya yaradılıb. İ.Həbibbəyli qeyd edib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir.

# İş dəftərləri, test kitablarının narazı salan qiymətləri

***Təxminən, iki aydan çoxdur ki, Azərbaycanda yeni tədris ili başlayıb. Yeni dərs ilinin başlanması valideynlərin qayğılarını artırıb. Onlar zəruri məktəb ləvazimatları ilə yanaşı, iş dəftəri, test kitabları almağa məcbur olublar. Qeyd edək ki, bu vəsaitlərin qiyməti 5-11 manat arası dəyişir. Müəllimlərin bütün fənlərdən iş dəftəri və test kitabları tələb etdiyini nəzərə alsaq, valideynlərin durumunu anlamaq elə də çətin olmaz. Maraqlıdır, görəsən, məktəbliləri bu vəsaitlərlə pulsuz və ya güzəştli şərtlərlə təmin etmək mümkündürmü?***



## Şikayət

Məsələn, qonşu Türkiyədə məktəblilər üçün iş dəftərləri yalnız ingilis dili fənnindən nəzərdə tutulub. Həmin vəsaitlər də məktəblilərə dövlət hesabına verilir. Bundan başqa, yuxarı sinif şagirdləri üçün humanitar və texniki fənləri əhatə edən test toplusundan ibarət "Kavrama testleri" adlı 2 kitab dövlət tərəfindən təmin olunur.

■ **Mövzu ilə bağlı hafta.az-a açıqlama verən təhsil eksperti Nadir İsrafilov deyib ki, bu məsələ uzun illərdir müzakirə edilsə də, həllini tapmır:**

"Artıq neçənci dəfədir, "başıbəlalı iş dəftərləri" ilə bağlı suallarla qarşılaşıram və hətta özüm-özümə sual vermək məcburiyyətində qalmışam ki, sıradan olan bir məsələnin ildən-ilə gündəmi zəbt etməsi nə deməkdir? "İş dəftərləri" ilə bağlı 15 illik müzakirə və mübahisələrə yaşıl və ya qırmızı işıq yandırmaqla son qoymaq, bu qədərmi çətindir? Nə az, nə çox, düz 15 ildir ki, hər yeni dərs ilinin başlanması ilə əlaqədar iş dəftərləri ilə bağlı məsələ yenidən gündəmə gəlib. Yəqin, bilən bilir, bilməyən isə bilsin ki, Təhsil Nazirliyi "İş dəftərləri"nin tətbiqini yaranan zərurətlə əlaqədar, yəni kurikulum sisteminə uyğun olaraq 2007-2011-ci illər üçün məqbul saymışdı. O dövrdə kurikulumun tələblərinə uyğun dərsliklər hazırlananadək belə dəftərlərdən istifadəyə ehtiyac vardı. Təəssüflər olsun ki, bundan kütləvi şəkildə sui-istifadə hallarına yol verildi. Bu, "iş dəftərləri" təhsilə, biliyə və elmə xidmətdən daha çox kommersiya maraqlarına xidmət etməyə başladı. Qiymətlər çoxları üçün əlçatan olmadı. İctimaiyyət bu məsələnin üstünə getdi. Bu, mətbuatda da geniş işıqlandırıldı və nazirlik iş dəftərlərinin dərslik komplekti siyahısından çıxarılması barədə əmr verdi. Elm və Təhsil Nazirliyindən də zaman-zaman, dəfələrlə bildirilirdi ki, "İş dəftərləri" dərslik komlektindən çıxarılıb, onların istifadəsi məcburi deyil. Belə bir rəsmi bəyanat da verilmişdi ki, əgər məktəblərdə şagirdlərə məcburi şəkildə iş dəftərləri aldırılarsa, o zaman valideynlər hüquq-mühafizə orqanlarına müraciət etməlidirlər. Qanunverciliyə əsasən buna dair ciddi ölçü götürüləcək. Belə hallar baş verərsə, biz buna qarşı mübarizə aparacağıq." Lakin məsələ olduğu kimi qalmaqda davam edir. İş dəftəri aldırılır, onlardan ev tapşırıqları verilir. Bununla belə üstündən artıq neçə illər keçməsinə baxmayaraq, vəziyyət o qədər də dəyişməyib".

Ekspert problemin düyünə düşməsinin səbəbinə də toxunub: "Kimsə bunu belə qəbul edir ki, iş dəftərləri dərslik komplektindən çıxarılıb, tədris prosesindən ki, çıxarılmayıb. Eynilə belə çıxır ki, iş dəftərlərindən istifadə edə də bilərsən, etməyə də. Bir tərəfdən də, bu məsələdə Elm və Təhsil Nazirliyindən asılı olmayan səbəblər də var, digər korporativ və kommersiya maraqları və s. də öz yerində. Məlum olduğu kimi "İş dəftərləri" 2013-cü ildən Təhsil Nazirliyindən alınaraq müstəqil nəşriyyatlara verilmişdi. Bir məsələ də var ki, bir çox müəllimlər və məktəb rəhbərləri də bizə məlum olan və məlum olmayan səbəblərdən bu iş dəftərlərin istifadəsində maraqlıdırlar. "İş dəftərləri"nin alınmasında ayrı-ayrı valideyn və şagirdlərə müəyyən təzyiqlər barədə də çox deyilib, çox yazılıb. Bir çox valideynlərimiz də bu kimi məsələlərə loyallıq göstərməkdə davam edirlər.

> "
> *Kimsə bunu belə qəbul edir ki, iş dəftərləri dərslik komplektindən çıxarılıb, tədris prosesindən ki, çıxarılmayıb*

> *Əslində əlavə materiallardan istifadə olunması yaxşı haldır*

Elm və Təhsil Nazirliyinin mövqeyi isə belə olub ki, dövlət ümumtəhsil məktəblərində təhsil alan şagirdlər əsas tədris vəsaiti olan dərsliklərlə pulsuz təmin edilirlər. Dərsliklərdə kifayət qədər çalışmalar var ki, onların adi yazı dəftərində həll edilməsi ilə mövcud təhsil proqramının mənimsənilməsi tam təmin oluna bilər. Bununla belə, müəllim təhsil proqramında nəzərdə tutulan standartların reallaşdırılması üçün dərslikdən başqa digər tədris resurslarından da istifadə edə bilər. Müəllim tədris prosesində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq, onlara müxtəlif vəsaitlərdən, eləcə də iş dəftərindən tapşırıqlar verə və bununla da diferensial yanaşmanı təmin edə bilər. Beləliklə, dilemma qarşısında qalmışıq. Əgər, doğrudan da iş dəftərləri, testlər və s. bu kimi digər əlavə materiallar məcburi deyilsə, o zaman təhsili onun üzərində qurmaq nə dərəcədə düzgündür? Əks halda valideynlər onları almaq məcburiyyətində qalır və əlavə xərcə düşmüş olurlar. Bu isə, aztəminatlı ailələr üçün xüsusilə çətinlik yaradır".

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elşən Qafarov deyib ki, Azərbaycan qanunvericiliyinə görə, ölkədə yalnız dərsliklər pulsuz verilir:** "Həmin dərsliklərdə də hər mövzu ilə bağlı müvafiq çalışmalar olur. Əgər valideyn və yaxud da müəllim əlavə vəsaitlərlə işləmək istəyirlərsə, bu onların şəxsi təşəbbüsüdür. Yəni, tədris proqramında yoxdur ki, hökmən iş dəftərləri və ya əlavə vəsaitlərdən istifadə olunsun. Əslində əlavə materiallardan istifadə olunması yaxşı haldır. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının Tədbirlər Planında nəzərdə tutulmuşdu ki, hələ 2018-ci ilə qədər ümumorta təhsildə səviyyəsində şagirdlərə pulsuz dərsliklər, test topluları, iş dəftərləri və s. vəsaitlərlə yüklənmiş planşetlər verilməli idi. Təəssüflər olsun ki, bu məsələ indiyədək reallaşmayıb. Əgər biz düşünürük ki, əlavə tədris materialları olmadan tədrisi keyfiyyətli qura bilmirik, gec də olsa o zaman ən azı 5-9-cu siniflər üzrə həmin planşetlərin verilməsinə başlamalıyıq".

✍ **Sevinc**



# Məktəb bufetlərində satılan qidalar

***Məktəblilərin qidalanmasının təşkili bütün dünyada diqqətdə olan məsələdir. Müşahidələr göstərir ki, bu gün Azərbaycan məktəbliləri heç də sağlam qidalanmırlar. Onlar daha işlənmiş, hazır qidalara, "fast food" yeməklərə üstünlük verirlər. Bu da gələcəkdə yeniyetmələrin piylənmədən, diabet və digər xəstəliklərdən əziyyət çəkməsinə gətirib çıxarır.***

## Müzakirə

Bəs, görəsən bu gün məktəb bufetlərində satılan qidalar nə dərəcədə keyfiyyətlidir? Ümumiyyətlə, məktəblilər necə qidalanmalıdırlar?

■ **Mövzu ilə bağlı hafta.az-a açıqlama verən qida üzrə baş mütəxəssis Ağa Salamov bildirib ki, bu gün məktəblərdə qida ilə bağlı ciddi problemlər mövcuddur:**

> "
> *Həmin suların tərkibində heç bir karbohidrat və vitamin yoxdur, şagirdlər onları içərək sağlamlıqlarına xeyir verə bilməyəcəklər*

"Bütün bufetlərdə rəngli, qazlı, tərkibində asit olan içkilər satılır. Uşaqlar məcbur qalaraq və su tələbatını ödəmək üçün bunlardan içirlər. Fosfor turşusu olan içkilər uşaqlara satılır. Həmin məhsullarda PH (hidrogen göstəricisi) olduqca aşağıdır, bu, da insan orqanizmə ciddi təsir edir. Həmin suların tərkibində heç bir karbohidrat və vitamin yoxdur, şagirdlər onları içərək sağlamlıqlarına xeyir verə bilməyəcəklər.

Onlar məcbur olaraq həmin zərərli maddələri qəbul edirlər, bu, da onlarda aqressiya və əqli geriliyə səbəb olur. Alzaymır və unutqanlıq kimi ciddi xəstəliklər də azyaşlıların belə qidaları qəbul etməsi sayəsində yaranır. Eyni zamanda, məktəblilər tez hazırlanan qidalar, işlənmiş məhsullar yeməyə üstünlük verirlər. Bu da gələcəkdə yeniyetmələrin piylənmədən, diabet və digər xəstəliklərdən əziyyət çəkməsinə gətirib çıxarır".

Mütəxəssis vurğulayıb ki, valideynlər övladlarına məktəbdə qidalanmaq üçün evdə hazırlanmış məhsullar qoysalar daha yaxşı olar: "Biz uşaqları təzə meyvə, tərəvəz yeməyə alışdırmalıyıq. Təzə meyvə və tərəvəzlərin, günəşdən aldığı enerji səbəbiylə qida dəyərləri çox zəngin olur. Eyni zamanda, tərəvəzləri "Blanch" texnologiyası ilə bişirməliyik ki, tərkinimdəki vitaminləri qorumaq mümkün olsun. Bu texnologiya nədir? " Blanch" texnologiyası bişən tərəvəzlərin rəngini, qida dəyərini və görünüşünü qorumaq məqsədi daşıyır. Bu texnologiya fransızcada "ağartmaq" anlamına gəlir, eyni zamanda fransız dilində məhsulların isti suda möhürlənməsinə də "blanch" deyilir. "Blanch" texnologiyasının tətbiqi zamanı tərəvəzlər qaynar suya əlavə olunur və biraz qaldıqda səthləri möhürlənir. Daha sonra tərəvəzlər qaynar suda möhürlənib, əvvəlcədən hazırlanmış buzlu suya qoyulur. Beləliklə, vitamin və mineral itkisinin qarşısı alınır. Bu texnologiya tərəvəzlərin rənginin canlı qalmasını və qida dəyərinin dəyişməməsini təmin edir".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən AQTA İctimai Şurasının üzvü, Azad İstehlakçılar İctimai Birliyinin rəhbəri Eyyub Hüseynov bildirib ki, vaxtilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi məktəb bufetləri üçün standart hazırlamışdı:** "Həmin standartlara uyğun olaraq məktəb bufetlərində bir sıra qidaların satışı qadağan olundu. Onlara qazlı, energetik içkilər, kolbasaların bir çox növləri,çips və digər məhsullar daxildir.

Lakin indi vəziyyət tamamilə başqa cürdür. Bufetlərin əksər hissəsi direktorlar tərəfindən kimlərəsə icarəyə verilərək şərikli biznesə çevrilir. Hazırda məktəb bufetlərinə mərkəzləşdirilmiş qaydada qida verən heç bir qurum yoxdur. Vaxtı ilə belə bir qurum olub, hazırda isə yoxdur. İndi məktəb bufetləri müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altındadır. Lakin burada da, gündəlik, ciddi nəzarət yoxdur. Xüsusən rayon və kənd məktəblərində bu məsələ daha çətindir. Üstəlik məktəblərin qidalanmasında böyük problem var. Çünki, böyük tənəffüs şagirdlərin qidalanmasına kifayət etmir. Ona görə də mən həmişə demişəm ki, məktəblərdə avtomatik meyvə satan qurğular qoyulmalıdır. Məktəb foyelərində uşaqlar qəpiklərini ataraq meyvə və digər məhsullardan istifadə etsinlər. Təbii ki, bu kimi məsələlər həll olunmalıdır".

AQTA-nın məktəb bufetlərindəki vəziyyətə nəzarət edib-etməməsinə gəlincə, mütəxəssis vurğulayıb ki, AQTA İctimai Şurasının üzvü olsa da, bu qurumun "mətbəxində" baş verənlərdən xəbərsizdirlər: "AQTA-nın İctimai Şurası effektiv işləmir, formaldır. Artıq neçə aylardır ki, İctimai Şuranın heç bir iclasları keçirilmir. Ümumiyyətlə İctimai Şuranın üzvlərinin AQTA-nın mətbəxində gedən məsələlərdən informasiya almaq imkanları sıfır vəziyyətindədir.

> "
> *Bufetlərin əksər hissəsi direktorlar tərəfindən kimlərəsə icarəyə verilərək şərikli biznesə çevrilir*

Dəfələrlə AQTA-nın İctimai Şura sədrinin olduğu yerdə məsələ qaldırmışam, AQTA medianı ciddi izləməli və arxasınca getməlidir. Təəssüflər olsun ki, İctimai Şura olaraq buna nail ola bilməmişik. Qeyd edim ki, İctimai Şura üzvlüyündən bir nəfər də istefa verib və uzaqlaşıb.

Heç Şura toplaşıb onu da müzakirə etməyib. Bu cür passiv və mənasız təmsilçilikdən mən də uzaqlaşacağam. Növbəti ildən İctimai Şuraya namizədliyimi verməyəcəyəm və o qurumda təmsil olunmayacağam. Çünki mənim də orada baş verənlərdən xəbərim yoxdur".

✍ **Sevinc**

# Onkoloji xəstəliklər İcbari Tibbi Sığortaya daxil edilsin

***Azərbaycanda onkoloji xəstələrin icbari tibbi sığorta ilə əhatə olunması təklif olunur. Belə bir təşəbbüslə parlamentin səhiyyə komitəsinin sədri, millət vəkili Əhliman Əmiraslanov çıxış edib. Onun sözlərinə görə, bir sıra ciddi xəstəliklərin müalicəsinin icbari tibbi sığorta üzrə xidmətlər zərfindən yer almaması narahatlıq doğurur: "İcbari tibbi sığorta üzrə xidmətlər zərfi kifayət qədər genişdir, xidmətlərin sayı təxminən 3000-ə çatıb. Hələ də bir sıra ciddi xəstəliklərin müalicəsi həmin xidmətlər zərfində yer almayıb.***



Zərfdə yer alması lazım olan xəstəliklərdən biri də məhz onkoloji xəstələrin müalicə məsələsidir. Parlamentdə müzakirələr zamanı da onkoloji xəstələrin icbari tibbi sığorta ilə əhatə olunmasına təqribən elə 200 milyon manat vəsaitin lazım olduğunu vurğulayıblar.

Fürsətdən istifadə edərək Maliyyə Nazirliyindən xahiş edirəm ki, onkoloji xəstəliyin hökmən icbari tibbi sığorta ilə əhatə olunmasına öz köməkliyinizi göstərəsiniz. Çünki bilirik ki, həmin xəstəlikdən əziyyət çəkənlər nə qədər pul xərcləyirlər". Bəs görəsən onkoloji xidmətlərin icbari tibbi sığorta zərfinə salınması nə vaxtdan reallaşa bilər?

> "
> *Gürcüstanın nefti yox, qazı yox, tibbin səviyyəsi təəssüflər olsun ki, bizdən qat-qat üstündür*

■ **Məsələni qəzetimizə şərh edən həkim-radioloq Aydın Əliyev hesab edir ki, əslində bütün xəstəliklər birmənalı şəkildə icbari tibbi sığorta paketinə daxil edilməlidir:** "Estetik, bədən şəkillendirmə əməliyyatları isə sığorta paketinə qismən daxil edilməlidir. Tutaq ki, bir adamın burnu əyridir, cəmiyyət arasına çıxarkən kompleks yaranır, utanır. Əgər belə hallar varsa, onda da sığorta paketində nəzərdə tutulmalıdır. Amma digər xəstəliklərin müayinə və müalicəsi tam şəkildə icbari tibbi sığortaya daxil edilməlidir. Bizdə çox böyük hoqqalar çıxarırlar. Tutaq ki, xəstə tibb müəssisəsinə müraciət edir, amma ona deyirlər ki, sənin xəstəliyin tibbi sığortaya daxil deyil. Necə yəni, daxil deyil? Gürcüstanın nefti yox, qazı yox, tibbin səviyyəsi təəssüflər olsun ki, bizdən qat-qat üstündür. Bu qədər sərvətlə biz niyə bütün xəstəlikləri tibbi sığortaya daxil etməyək? Mən onkoloji xəstələr tanımışam ki, onlar məhz imkansızlıqdan dünyasını dəyişiblər. Axı, bu dünyada insan sağlamlığından önəmli nə var? Bütün dünyada ən prioritet məsələ insan sağlamlığıdır. Yəni, biz burada konkret hansısa xəstəliyi müzakirə etməliyik, məsələni ümumi müzakirə etməliyik, istisna yeri qoymamalıyıq. Hansısa sənəddə istisna yeri olanda bizim məmurlar sui-istifadə hallarına yol verirlər".

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən verilən məlumata görə isə həlak məsələ ilə bağlı təkliflər var. Həmin təkliflər ətrafında araşdırmalar aparılır.

**Yeri gəlmişkən...**

**Hazırda Azərbaycanda 58 024 onkoloji xəstə qeydiyyatdadır.ÜST-nın məlumatına görə 2025-ci ilədək dünyada 20 milyon yeni xərçəng xəstəliyi qeydə alınacaq.**

Həmin halların 4/5 hissəsi aşağı və orta gəliri olan ölkələrdə (Azərbaycan orta gəlirli ölkələrə aid edilir) baş verəcəkdir. Ötən il bu kateqoriyadan olan xəstələrə nə qədər vəsait xəclendiyinə gəlincə, Azərbaycan Respublikasında onkoloji xəstəliklər üzrə tədbirlərin maliyyə təminatı tədbirləri çərçivəsində 48,3 milyon manat vəsait xərclənib.

✍ **Sevinc**

# Yalançı “qara cümə” endirimləri

***Hər il ABŞ-da keçirilən Şükran Günü bayramından sonra ilk cümə günü məşhur “Black Friday”, yəni “qara cümə” günü keçirilir. Bu gün bir sıra dükanlarda endirimlər olur. Bu il “qara cümə” 25 noyabra təsadüf edir. Bu gündə iri ticarət mərkəzləri malları 50, hətta, 80 faiz endirimlə satır. Bu isə, ticarət mərkəzləri qarşısında izdihamlara səbəb olur. Oxucularımıza endirimlər günü olan “Black Friday”in tarixçəsini təqdim edirik.***



## Ticarət

Qeyd edək ki, endirimli ticarət ənənəsi Amerikada XIX əsrdə yaranıb. İri ticarət şəbəkələri Yeni il öncəsi böyük endirimlər edir, alıcıları stimullaşdırır və bonuslar, hədiyyələrlə mükafatlandırırdılar. Bunun banisi də 1852-ci ildə anadan olmuş Frenk Vulvort sayılır. Məhz endirim fikrini ilk dəfə o, irəli sürüb. Pensilvaniya ştatının Lankaster şəhərində kiçik dükanda satıcının köməkçisi işləyən qaradinməz oğlan qiymətləri aşağı sala bilmədiyi üçün əsəb keçirirdi. O dövrdə malların üzərində qiymət olmurdu və satıcılar hər müştəriyə bir qiymət deyirdilər.

Bir dəfə satıcı səfərdə olan Frenk bir fikrə gəlir. O, bütün mövsüm mallarını piştaxtaya düzür və yanına ”Hər şey 5 sent” yazısını qoyur. Bu, ilk endirim idi! Uğur qazandıqdan sonra Frenk XX əsrin əvvəlində ilk pərakəndə satış şəbəkəsini qurur. 1951-ci ildə isə ”Factory Management and Maintenance” jurnalı maraqlı tendensiya qeydə aldı. Şükran Günündən sonra işçilər sağlamlıqlarına görə icazə alır, əslində isə özlərinə 4 günlük istirahət ayırırdılar. Bunun səbəbi də dükanları gəzib endirimlərdən faydalanmaq idi.

Amma məhz ”qara cümə” termini ilk dəfə 1966-cı ildə Filadelfiyada ortaya çıxdı. Bu terminin yaranması ilə bağlı iki versiya var. Birinci versiyaya əsasən, Şükran gününün ertəsi yollarda böyük tıxaclar yaranıb. Dükanlara axın zamanı əzilənlər olub.

Bu səbəbdən bu gün qara cümə adlandırılıb. İzdihamlara görə ölənlərin olduğu da deyilir. Məhz eyni gün Filadelfiya polisi qeyri-adi tıxaclara və izdihama görə bu günü ”Black Friday” adlandırıb. İkinci versiya müahsibatlıqla әlaqəlidir. Bu gün mühasibat hesabatları təqdim edilib. Şirkətin ziyanı qırmızı, gəlirləri isə qara mürəkkəblə qeyd edilib. Endirimlər günündə gəlir çox olduğu üçün hesabatda qara rəng daha üstün olub. Başqa bir iddia isə Black Friday günü dükanlar qapılarını gün çıxmadan əvvəl açmalarıdır.

> “
> *Ölkəmizdə qara cümə öncəsi bəzi işbazlar məqsədyönlü şəkildə məhsulların qiymətini artırır*

“Qara cümə” rəsmi bayram günü hesab olunmur. Lakin ABŞ-ın Kaliforniya və bir neçə digər ştatında, rəsmi qaydada bəzi hökumət işlərində, həmçinin məktəblərin bir neçəsində qeyri-iş günü elan olunub. Qeyd edək ki, Azərbaycanda da “qara cümə”yə xüsusi maraq var. Artıq bir çox mağazaların önündə endirim kampaniyaları ilə bağlı elanlar yerləşdirilib.

■ **İqtisadçı ekspert Natiq Cəfərli hesab edir ki, Azərbaycanda “qara cümə” anlayışı son 5-6 ildə geniş vüsət almağa başlayıb: “Düzdür, bu gün ölkəmizdə də bir çox mağazalar, pərakəndə şirkətlər öz mallarını normal günlərə nəzərən “qara cümə” günü daha ucuz qiymətə müştərilərə təklif edirlər**. Amma Azərbaycanda “qara cümə” anlayışı Avropa və ABŞ-dan fərqlidir. Belə ki, ölkəmizdə “qara cümə” öncəsi bəzi işbazlar məqsədyönlü şəkildə məhsulların qiymətini artırır. “Qara cümə” günü isə qiymətlər yenidən ucuzlaşır.

Yəni dünyada “qara cümə” günü qiymətlər ucuzlaşdığı halda Azərbaycanda olduğu kimi qalır. Bu səbəbdən “qara cümə” günü məhsul qiymətlərinin həqiqətən də endirilməsinə nəzarət etmək üçün bir mexanizm yaradılmalıdır. Avropada və ABŞ-da konkret saytlar var ki, məhsulların normal günlərdəki və “qara cümə” günü qiymətlərini alıcılara təqdim edir. Bu yolla alıcılar məhsulun qiymətinin nə qədər endirimdə olduğunu təyin edə bilirlər. Əgər ölkəmizdə də belə bir mexanizm olarsa, “qara cümə” günləri Azərbaycan vətəndaşları üçün də məhsuldar ola bilər”.

***Sevinc***

## HƏFTƏ REYTİNQ

### Həftənin FOTOSU



ABŞ-dan olan bir qrup tədqiqatçı Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edib. Tədqiqatçılar arasında Hudson İnstitutunun böyük elmi işçisi Mayk Doran da var. Doranın Cəbrayılda Xudafərin körpüsü qarşısında çəkilən fotosu isə sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Belə ki, hazırda Qərb ölkələri ilə İran arasında yaşanan gərginlik fonunda siyasətçinin İranla sərhəddə foto çəkdirməsi böyük maraqla qarşılanıb. Həmin fotonu isə analitik öz tvitter hesabında paylaşıb.

### Həftənin AÇIQLAMASI



Böyük Britaniyanın keçmiş Baş naziri Boris Conson fevralda Rusiyanın xüsusi əməliyyatının başlamasından sonra müttəfiqlərin Ukraynada münaqişənin həlli perspektivlərini necə dəyərləndirdiyi barədə danışıb. Consonun sözlərinə görə, dövlətlər fərqli reaksiya verib, məsələn, Almaniya Ukraynaya təslim olmağı təklif edib. “Almaniya nə vaxtsa inanırdı ki, əgər bu baş versə, bu, fəlakət olacaq, o zaman hər şeyi mümkün qədər tez bitirib Ukraynaya təslim olmaq daha yaxşı olar”, - Conson bildirib.

### Həftənin PREZİDENTİ



Qazaxıstanın Mərkəzi Seçki Komissiyası ölkədə keçirilən növbədənkənar prezident seçkilərinin yekun nəticəsini açıqlayıb.

Kasım-Jomart Tokayev səslərin 81,31%-ni toplayaraq yenidən ölkənin Prezidenti seçilib. “Beləliklə, dünən açıqlanan ilkin nəticələr təsdiq olunub”, - deyə Qazaxıstan MSK-nın rəhbəri Nurlan Abdirov qeyd edib. Məlumata görə, Tokayevin andiçmə mərasimi noyabrın 26-sı baş tutacaq.

### Həftənin TƏXRİBATI



Müdafiə Nazirliyi Sarıbaba yüksəkliyində aşkar edilmiş minalarla bağlı sülhməramlılar və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzini məlumatlandırıb. Nazirliyin Mətbuat xidmətindən Ermənistanda istehsal edilmiş Sarıbaba yüksəkliyinin şimal istiqamətində qanunsuz erməni silahlı dəstələri tərəfindən basdırılmış piyada əleyhinə mina sahəsi noyabrın 21-də aşkar edilib. Aşkar edilmiş minalar barədə Rusiya sülhməramlılarının komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumatlandırılıb, eləcə də mina sahəsinə baxış keçirilməsi üçün əraziyə dəvət olunublar.

### Həftənin MÜKAFATI



Qətərdə keçirilən dünya çempionatında Argentina üzərində qələbə qazanan Səudiyyə Ərəbistanı millisinin bütün futbolçuları külli miqdarda mükafat alıb. Bu barədə məşhur futbol agenti Timur Qurtskaya məlumat yayıb. Onun sözlərinə görə, hər futbolçuya 2,5 milyon avro mükafat verilib. Qeyd edək ki, Səudiyyə Ərəbistanı millisi sensasiyalı şəkildə DÇ-2022-nin favoritlərindən sayılan Argentina yığmasını 2:1 hesabı ilə məğlub edib. Qələbədən sonra Səudiyyə Ərəbistanında bütün işçilər, tələbələr üçün bayram tətili elan edilib.

### Həftənin KONFETİ



İngiltərəli müğənni Harri Stayls Los-Ancelesdəki konserti zamanı xoşagəlməz hadisə ilə üzləşib. Tamaşaçıların biri ifaçıya “Skittles” konfeti atıb. Konfet Staylsın gözünə dəyib. Bunu əks etdirən görüntülər sosial şəbəkələrdə tirajlanıb.

***Azad Əliyev***

## Qətər - 2022



**DÇ-2022-nin ilk turunda Almaniya ilə qarşılaşan Yaponiya millisində ilk yaşanıb. Asiyalılar mundiallar tarixində ilk dəfə birinci qolu buraxdığı matçda qələbə qazanıb. Oyunda hesabı “bundestim” açsa da, “gündoğar ölkə” təmsilçisi 2 qol vuraraq aktivinə 3 xal yazıb.**

Buna qədər Yaponiya millisi birinci qolu buraxdığı 9 matçın 2-də bərabərliyə nail olub, 7-də isə məğlubiyyətə üzülüb. Həmçinin bu matçda yaponların hər iki qolunu sonradan meydana çıxan Ritsu Doan (”Frayburq”) və Takuma Asano (”Bohum”) vurub. Bununla da, Yaponiya dünya çempionatları tarixində Almaniya ilə oyunlarda ehtiyatdan matça qoşulan 2 futbolçusunun qol sevinci yaşadığı ilk milli komanda olub.

***

**Xorvatiya millisinin futbolçusu Luka Modriç tarixi göstəriciyə imza atıb. Narımmüdafiəçi üç fərqli onillikdə həm dünya, həm Avropa çempionatında oynayan ilk futbolçu olub.**

Xorvatiya yığmasının üzvü DÇ-2022-nin I turunun Mərakeşlə matçında meydana çıxıb. Bu, 37 yaşlı veteran üçün 4-cü mundial olub. Luka 2006, 2014 və 2018-ci illərdə dünya, 2008, 2012, 2016 və 2020-ci illərdə Avropa çempionatında forma geyinib. O, millidə 155 oyunda 23 qol vurub.



Qeyd edək ki, hazırda davam edən Mərakeş - Xorvatiya matçında hesab açılmayıb. Apasport.az

# “Nar”ın peşə təlimlərinin ilk mərhələsi başa çatdı (R)

**“Nar”ın eşitmə məhdudiyyətli şəxslərə dəstək verilməsi məqsədilə təşkil etdiyi “Təlim Məktəbi” sosial layihəsinin cari il üçün birinci mərhələsi başa çatıb. 3 ay davam edən təlimlərdə manikür ustası sənəti üzrə peşə biliklərinə yiyələnmiş 10 iştirakçıya sertifikatlar təqdim edilib. Təlim müddətində iştirakçılara manikür peşəsinə aid bütün biliklər və dırnaq üzərində dizayn işləri öyrədilib.**




Layihənin əsas məqsədi nitq və eşitmə məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyasına və maliyyə azadlığına dəstək olmaq üçün onları peşə təlimləri ilə təmin etməkdir. Təlimlərin istiqaməti daha çox əmək bazarında tələbat olan sahələr üzrə müəyyənləşdirilir.

“Təlim məktəbi” layihəsinin tərəfdaşı olan “Karlara Dəstək” İctimai Birliyinin sədri Kamran Abasov layihənin önəmindən danışaraq vurğulayıb: “Bu layihədə tərəfdaş kimi çıxış etmək qürurvericidir, çünki “Təlim Məktəbi” layihəsi eşitmə məhdudiyyətli gənclərin həyatında köklü dəyişikliyə səbəb olur. Təlimdən keçmiş bütün iştirakçılara uğurlar arzu edirəm”. “Nar”ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov isə sözügedən layihənin gənclərin həyatında yeni bir mərhələnin başlanğıcı olduğunu vurğulayıb. “Bu təlimdə əldə etdikləri biliklər iştirakçılara manikür peşəsi üzrə sərbəst işləməyə, hətta öz bizneslərini qurmağa da imkan yaradır. Əsas məqsədimiz bu kəsimdən olan gənclərin monetar sərbəstlik qazanmasına dəstək olmaqdır” - deyə o bildirib.

Qeyd edək ki, “Nar”ın “Təlim Məktəbi” layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində “KSM üzrə ən yaxşı layihə” nominasiyasında qalib olub. “Nar”ın cəmiyyətin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi digər layihələrlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



Dünya çempionatından maraqlı görüntü

> “

## Məktəb bufetlərində satılan qidalar

**Ağa Salamov,**
qida üzrə baş mütəxəssis

Həmin suların tərkibində heç bir karbohidrat və vitamin yoxdur, şagirdlər onları içərək sağlamlıqlarına xeyir verə bilməyəcəklər.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmini 15 milyard dollaradək çatdırmaq planlaşdırılır.**

**Son dörd il ərzində ticarət dövriyyəsi 3,6 milyarddan 5,2 milyard dollaradək artıb. Bu gün iki ölkə arasında ticarət əsasən neft və qazı əhatə edir.**




▸▸ Səh. 7

# İş dəftərləri, test kitablarının narazı salan qiymətləri